

## Praqada Əliyev-Ərdoğan-Paşinyan görüşü: Növbəti raunda hazırlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etmək üçün Praqada səfərdədir.*

Səh.2


# UNİKAL

№37 (2122) 7 Oktyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Ərdoğan Ermənistana çağırış etdi

## Türkiyə prezidenti: Azərbaycanla sülh müqaviləsini imzalayın

*Türkiyə-Ermənistan-Azərbaycan münasiblərinin isinməsini, həll olunmasını istəyirik.* "Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Pragada mətbuat konfransı zamanı erməni jurnalistin sualına cavab olaraq bildirib. O qeyd edib ki, Türkiyə və Ermənistan arasında hal-hazırda karqo və hava daşınmaları üzrə danışıqlar gedir, xüsusi nümayəndələr ilə xarici işlər nazirlikləri bunları müzakirə edir. "Bizim ilkin şərtimiz yoxdur. Sadəcə olaraq Azərbaycanla aranızda sülh müqaviləsini imzalayın deyirik. Bundan sonra bizimlə bağlı heç bir problem qalmaz. Qapılarımızı, hava, qara və dəmir yollarımızı açarıq".

Səh.3



Səh.2

## İlham Əliyevdən sülh mesajı:

### "Xoş məram olarsa, sülh müqaviləsi ilin sonunadək imzalana bilər"

## "Ölkədə monopoliya baş alıb gedir"



*Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli "Unikal"a müsahibə verib. Deputat paytaxt məktəbində şagirdin öz sinif yoldaşını döyərək videosunu sosial şəbəkələrdə paylaşmasından, qiymətlərin bahalaşmasından, Bakının tıxac probleminin aradan qaldırılması üçün...*

Səh.4

## Emin Əmrullayev üçün "yolun sonu" görünməyə başladı



*Az qala, elə bir həftə yoxdur ki, yazılı və elektron mətbuatdan tutmuş sosial şəbəkələrədək təhsil müəssisələrində yaşanan hansısa qalmaqal xəbər müzakirə mövzusu olmasın. Gah hansısa məktəb direktorunun müəllimlərdən, müəllimlərin valideynlərdən rüşvət istəməsinə, tələb etməsinə dair səs yazısı yayılır...*

Səh.5

## "Rusiya yoxdursa, dünya nəyə lazımdır?" - Putin



*"Əgər Ukrayna və Qərb eskalasiyanı davam etdirsə, Putin dəfələrlə xəbərdarlıq etdiyi şeyi edəcək: o, nüvə silahından istifadə edəcək". "Unikal" xəvər verir k, bu barədə "National Interest" yazıb. Nəşrin məlumatına görə, Rusiya nüvə doktrinasında açıq şəkildə qeyd olunur ki, ontoloji təhlükə...*

Səh.14

# "Bu dəqiqə qəbir əzabı ilə əlləşir" - Rəhimlə qalmaqal yaşayan Kərim




***Müğənni Kərim Abbasov qonaq olduğu "Səhər mərkəzi" verilişində bir zamanlar qalmaqal yaşadığı mərhum həmkarı, bəstəkar Rəhim Rəhimli bağlı sualları cavablandırıb.***

İfaçı R.Rəhimlinin dəfnində olmamasına aydınlıq gətirib: "Müəyyən işlərim var idi. Sosial şəbəkə hesabımda da Rəhimin vəfatı ilə bağlı paylaşım etmək istəmədim. Ürəyimdən, içimdən gəlmədi".

O, həmkarının məzarını ziyarətə gedəcəyini və ona hallalıq verdiyini vurğulayıb: "Məzarını gedib ziyarət edəcəyəm. Onun rəhmətə getdiyini eşidəndə haqqımı halal etdim. Dedim, mənə qarşı nə etmisənsə, haqqı halal olsun. Qulağı torpağında olsun. Allah günahlarını bağışlasın.

Bu dəqiqə o, qəbir əzabı ilə əlləşir. Son vaxtlar onun haqında çox söz-söhbətlər gəzir. Onun barəsində danışmaq istəmirəm. Qoy qulağı torpağında olsun. Amma qəbrini ziyarətə gedəcəyəm. Gedib onunla söhbət etmək istəyirəm".

Qeyd edək ki, Kərim Abbasov iki il əvvəl müsahibələrinin birində onunla müğənni Niyam Salaminin arasını R.Rəhimlinin vurduğunu iddia edərək onu şeytan adlandırmışdı.

# Röya: "Bu həyatı çox arzulayırdım"



***"Özüm-özümü yoruram. Bu həyatı çox arzulayırdım. Amma arada da olur ki, yuxudan durub, saçını toplayıb, gəlirsən gözəllik salonuna, heç kimlə danışmaq istəmirsən. Kimsə gəlir min dənə sual verir. Min dəfə təşəkkür edib, sağollaşıram ki, getsin amma getmir".***

"Unikal" bizim.media-ya istinadən xəbər verir ki, bu sözləri Xalq artisti Röya Ayxan qonaq olduğu "7 canlı" axşam şousunda deyib.

Restoranların birində başına gələn əhvalatı danışan sənətçi bildirib ki, küsülü olduğu insanı görməzdən gəlir və həmin insan onun üçün yox olur.

"Bir neçə gün əvvəl heç kefim yox idi. Dostlarımdan biri ilə oturmuşdum, danışırdıq. Bir qız gəldi. On dəqiqə dayanmadan danışdı. Axırda ona dedim ki, siz şəkil çəkdirəcəksiniz, cavab verdi ki, "Hə". Söylədim ki, gəl səninlə foto çəkdirək, çıx get.

Qayıdıb mənə deyir ki, rəfiqəmi gözləyirəm, çox gecikib, ona hirslənmişəm. Sonra keçdi başqa söhbətə. Sizi öz toyumda görmək istəyirdim, amma çağırmadılar. Burada da yolda dayanmışdım, az qala avtomobil məni vursun.

Mən dostuma, ofisant da bizə baxır... Dedim ki, bacı dərdini danışıb bitirdinsə, get "borş"umu yeyim. Buz kimi oldu yeməyim. Amma onlar məni özləri qədər sevirlər. İnanın, onların bu söhbətləri məni yorur. Kefim olanda gözəllik salonunda gəlinlərə gəşəng əhval-ruhiyyə bəxş edirəm ki....

Deyəndə ki, gözlərinə çəkilən "layner" düz deyil, makiyaj ustaları otaqdan məni qovurlar. Dostlarım mənə söyləyirlər ki, əhvalının orta səviyyəsi yoxdur. Ya çox yaxşısan, ya da çox pissən. Əgər bir insandan küsürəmsə, onu ümumiyyətlə görmürəm.

O adam mənim üçün yox olur. Əgər sevəcəyəmsə, o insana içimdən gələn dünyanı belə verəcəyəm. Kim mənə nə zaman yaxşılıq edibsə, onu unutmuram, kim pislik edibsə, onu da unutmuram. Amma kinli olmaq yaxşı şeydir", - deyə Röya fikirlərini ifadə edib.



# "Güclünün adamı var deyə, fağırı incitməyin" - Brilliant Dadaşova

***"Vicdansızlıq etməyin, şeytana qoşulub Allahın əleyhinə getməyin! Güclünün adamı var deyə, fağırı incitməyin".***

Bu sözləri Xalq artisti Brilliant Dadaşova sosial şəbəkədə yazıb. Müğənni məktəbdə sinif yoldaşını döyən şagirddən və ona münasibət bildirənlərdən bəhs edib: "Allahın əleyhinə getməyin. Ay iki uşaq vuruşub deyənlər, guya bilmirsiniz ki, vuruşarkən hər iki tərəfinin vurması şərtdir? Bilmirsiniz ki, tək tərəf zərbə endirirsə, bu, cinayətdir?

Təbiətin qarşısında biz qarışqayıq. Heç olmasa, öz vicdanınız qarşısında qarışqa olmayın. Haqqı nahaqqa möhtac qoymayın".

# Qardaşı Nazpərini niyə döyüb? - Özü açıqladı

***Xalq artisti Nazpəri Dostəliyeva "Həmin Zaur" verilişinə qonaq olub.***



Sənətçi proqramda açıqlaması ilə diqqət çəkib. Dostəliyeva aparıcı Zaur Kamalın "Ən sərt şilləni kimdən almısınız" sualına belə cavab verib: "Bir dəfə məktəbdən evə qayıdanda böyük qardaşım şillə vurub. "Bəla" qardaşım... Müğənni olmağımı istəmirdi. Elə ona görə də o addımı atmışdı".

# Nigar Şabanova boşandığını açıqladı

***Əməkdar artist Nigar Şabanova boşandığını açıqlayıb.***

İfaçı qonaq olduğu "Səhər mərkəzi" verilişində "Nigar Şabanova boşanıb?" sualını cavablayıb.

O, əlində tutduğu "Yalan" və "Doğru" yazılmış vərəqləri əvvəlcə yan-yana qoysa da, daha sonra boşandığını etiraf edib.

Qeyd edək ki, N,Şabanova XTQ giziri, hərbçi Xəyyam Qaragözov ilə ailəli idi.





# "Erməni terroru nəticəsində 1105 azərbaycanlı həlak olub" - ədliyyə müşaviri

***"Ermənistanın azərbaycanlılara qarşı törətdiyi teror hadisələri nəticəsində 1105 nəfər həlak olub, 1180-dən çox adam yaralanıb".***

"Unikal" xəbər verir ki, bunu Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi, kiçik ədliyyə müşaviri İlqar Səfərov Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən 1988-ci ildən bu günədək Azərbaycana qarşı törədilmiş cinayətlərə dair Baş Prokurorluq və Xarici İşlər Nazirliyinin birgə brifinqində çıxışı zamanı deyib.

Onun sözlərinə görə, 1988-ci ilin fevral ayından etibarən Ermənistan SSR-nin Azərbaycan SSR-yə, 1991-ci ildə müstəqilliyin bərpasından sonra isə Ermənistanın Azərbaycana ərazi iddiaları və hərbi müdaxiləsi nəticəsində son 34 il ərzində Azərbaycan dövlətinə, xalqına və vətəndaşlarına qarşı çoxsaylı sülh və insanlıq əleyhinə və müharibə cinayətləri törədilib: "Bu cinayətlərin hər biri prokurorluq orqanları tərəfindən araşdırılıb, Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılıb, sübutlar toplanılıb, cinayət törətmiş şəxslərin bir qismi müəyyən edilməklə məhkəmə məsuliyyətinə verilib, barələrində ədalətli məhkəmə hökmləri çıxarılıb.

Eyni zamanda cinayət törətmiş bir sıra şəxslər barəsində cinayət məsuliyyətinə cəlb etmə haqqında qərarlar qəbul edilməklə onların beynəlxalq axtarışa verilməsi təmin edilmiş, həmin şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində ardıcıl işlərin görülməsi davam etdirilir.

Erməni silahlı birləşmələri tərəfindən törədilmiş cinayət hadisələri bir neçə istiqamətdə təsnifatlaşdırıla bilər ki, burada da kütləvi insan tələfatları ilə nəticələnən terror hadisələri xüsusi qeyd edilməlidir".

İ.Səfərov söyləyib ki, 1988-94-cü illərdə azərbaycanlı mülki əhali hədəf alınmaqla törədilən 38 terror hücumu zamanı 10 sərnişin avtobusu, 11 minik avtomobili, 1 minik avtomobili karvanı, 2 yük avtomobili, 6 sərnişin qatarı, 2 metro qatarı, 2 helikopter, 1 təyyarə və 1 dəniz bərəsində törədilən partlayışlarda 1105 nəfər həlak olub, 1180-dən çox adam yaralanıb.

Həmin terror hücumlarından biri zamanı 20.11.1991-ci il tarixdə Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında erməni hərbi dəstələri tərəfindən Azərbaycana məxsus Mİ-8 markalı hərbi helikopterin vurulması nəticədə Azərbaycanın Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, Baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan Respublikası Daxili İşlər nazirinin müavini Saylau Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev də olmaqla ümumilikdə 22 nəfər qətlə yetirilib.

Hətta 18 mart 1994-cü il tarixdə Xankəndi şəhəri yaxınlığında Azərbaycana məxsus olduğunu güman edildiyi üçün İran Hərbi Hava Qüvvələrinə məxsus "Herkules" tipli təyyarənin vurulması ilə 34 diplomat və ailə üzvləri həlak olub", - o vurğulayıb.

# Nəqliyyat sisteminin iflic olma səbəbi: Milyonluq layihələrdəki "yeyinti"

## İllərdir külli miqdarda büdcə pulları xərclənməsinə baxmayaraq, Bakının nəqliyyat problemi getdikcə daha da ağırlaşır



***Bakıda nəqliyyatın dözülməz durumu yola salmaq üzrə olduğumuz həftə hökuməti hərəkətə gətirdi - oktyabrın 3-də Baş nazir Əli Əsədovun sədrliyi ilə nəqliyyat sahəsində mövcud vəziyyətə, problemlərin və qarşıda duran vəzifələrin həllinə həsr olunan işçi müşavirə keçirildi.***

Bu barədə Nazirlər Kabinetindən verilən məlumatda bildirilib ki, müşavirədə aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənilib, paytaxtda yol-nəqliyyat sahəsində mövcud problemlər geniş müzakirə olunub, qarşıda duran vəzifələrin həlli ilə bağlı müvafiq tapşırıqlar verilib.

Ekspertlərin fikrincə, qeyri-rəsmi məlumatlara görə hazırda Bakı və ətrafında 5 milyona yaxın insan yaşayır. Rəsmi məlumatlarda bu rəqəm iki dəfəyə yaxın azdır, lakin onu dəqiq hesab etmək mümkün deyil - belə ki, əyalətlərdə qeydiyyatda olan, özü isə daim Bakıda iş və ya təhsil səbəbilə yaşayan yüzminlərlə vətəndaşımız var.

Nəticə etibarilə bu, paytaxt həyatının bütün sahələrində olduğu kimi, şəhər orqanizminin qan damarları sayılan nəqliyyat sistemində də dözülməz vəziyyət yaradıb. Son 15 ildə problemin aradan qaldırılması üçün müxtəlif addımlar atılıb, üstəlik, büdcədən külli miqdarda pullar xərclənib, lakin müəyyən müsbət meyllər müşahidə olunsa da, problem nəinki həll edilib, əksinə daha da dərinləşib.

Məsələn, Ziya Məmmədovun nəqliyyat naziri olduğu dövrdə kiçik tutumlu avtobusların əksəriyyətinin marşrutlardan çıxarılması və iri tutumlu avtobuslarla əvəzlənməsi prosesi başladı, ancaq problem həll edə bilmədi.

Böyük pullar hesabına şəhərdaxili avtobus marşrutlarının yenilənməsi, daha iritutumlu və keyfiyyətli avtobusların gətirilməsi, şübhəsiz ki, təqdirəlayiq idi, ancaq bir şərtlə ki, şəhərdəki istismar müddətini başa vurmuş avtobusların hamısı yenilənsin. Çünki hazırda marşrutlarda işləyən "sərnişin" avtobuslarının mühüm bir hissəsi hələ də tam yararsız və təhlükəlidir. Üstəlik, iri tutumlu avtobuslar keyfiyyətli xidmət cəhətdən üstün olsa da, Bakının dar küçələrində onların hərəkəti əlavə problemlər yaradır. Həmçinin, sözügedən avtobuslar olduqca ləng hərəkət edirlər ki, bu da sərnişinlərin mənzil başına nəzərdə tutduqları vaxtdan gec çatmalarına səbəb olur. Eyni zamanda da, tıxacların yaranmasına rəvac verir.

Belədə Ziya Məmmədov yenə külli miqdarda büdcə pulları hesabına Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzini qurdu. Bu işə 100 milyon manatdan çox pul xərcləndi, ancaq həmin layihə də fiasko ilə nəticələndi - faktiki olaraq işləmədi, paytaxtın nəqliyyat dərdinə zərrəcə dərman olmadı.

Sonradan Məmmədov vəzifəsini itirdi, Bakı Nəqliyyat Agentliyi (BNA) yarandı və Vüsal Kərimli onun rəhbərliyinə gətirildi. Nəticə - yenə də sıfır!

Bu Agentliyin indiyədək büdcədən xərclədiyi milyonlarla manat da köklü müsbət dəyişikliklərə gətirib çıxarxmadı. Əksinə, nə sərnişindaşımadakı çoxsaylı problemlər aradan qalxdı, nə də Bakıdakı tıxaclar azaldı. Üstəlik, çox qısa zamanda həm sərnişinlərin, həm də sürücülərin ən çox şikayətləndiyi, giley-güzar elədiyi quruma çevrildi. Həmin giley-güzarların motivləri isə kifayət qədər "zəngin" idi; məsələn, aydın deyildi ki, bu qədər böyük pullar xərclənməsinə baxmayaraq niyə hələ də Bakıda marşrutlar düzgün təşkil edilməyib, məsələn, metrostansiyaları arasında marşrutlar daha çox paylanıb, metrostansiyaları olmayan yerlərə isə əksinə, daha az marşrut işləyir. Yaxud, marşrut xətlərinin bir çoxunu ləğv edərək hərəkət xətlərini qısaltmaq, nəticədə sərnişindaşımada böyük disbalans yaratmaq hansı "dərin ağlın" məhsuludur? Ya da necə ola bilər ki, ildən- ilə avtobusların sayının artmasından danışılsın, ancaq əksər marşrutlarda sərnişinlər ayaq üstə, az qala, bir-birinin belində getməyə məcbur olsun?!

Zaman keçdikcə iş o yerə çatdı ki, media və sadə vətəndaşlar bir yana qalsın, hətta millət vəkilləri belə BNA-nın absurd qərarlarından, anormal "həll yollarından" narazılıq etməyə başladılar.

Adıçəkilən agentlik isə cəmiyyətin və medianın haqlı tənqidlərindən, etirazlarından, şikayətlərindən nəticə çıxarmaq əvəzinə "təkzib yolunu" tutmağı üstün saydı. Elə görüntü yaratmağa çalışdı ki, guya kimlərsə BNA-nın uğurlarını gözdən salmaq üçün məqsədli şəkildə linç kampaniyası aparırlar.

Sonluq isə ortdadır - öncə Ziya Məmmədovun, ardınca da Vüsal Kərimlinin yarıtmaz fəaliyyəti Baş nazir Əli Əsədovu bu məsələ ilə birbaşa məşğul olmağa, xüsusi müşavirə keçirməyə sövq etdi. Ümid eləyək ki, bu müşavirənin çox ciddi nəticələri olacaq və Bakının nəqliyyat sistemində illərdən bəridir yığılıb qalmış problemlərinin köklü həlli istiqamətində konkret addımlar atılacaq. Hətta bu işə son 15 ildə Nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi, BNA və "BakıBus" layihələrinə ayrılan yüz milyonlarla manatın təftişindən də başlamaq mümkündür. Qoy aydınlaşsın ki, həmin vəsaitlər nə qədər doğru, təyinatı üzrə xərclənib və nəticə niyə bu qədər səmərəsiz, qeyri-effektiv olub?!'

***Sənan Mirzə***

# Praqada Əliyevdən nə istəyə bilərlər? - TƏHLİL

***Bu gün Praqda keçiriləcək dördtərəfli görüş - Əliyev, Mişel, Makron və Paşinyan - sülh sazişinin imzalanmasına təkan verə biləcəkmi?***

Bakı və İrəvanın açıqlamaları müəyyən gözləntiləri artırır və o mənzərəni ortaya çıxarır ki:

- Sərhəd toqquşmasından sonra Qərbin bölgədə ələ aldığı vasitəçilik təşəbbüsündə müəyyən irəliləyişlər var;

- Ukraynada zəifləyən Rusiya Cənubi Qafqazda da arxa planda qalır.

Hərçənd, tərəflərin açıqlamaları və mövqelərində uzlaşma ilə yanaşı, toqquşan məqamların olması açıq suallar da yaradır.

Sülh sazişində əsas prinsip Bakının İrəvana təqdim etdiyi 5 bəndlik təklif paketi götürülür:

bu paketin ilk üç bəndində anlaşma mümkün olsa da, son iki bəndi ilə bağlı - sərhədin delimitasiya və demarkasiyası, nəqliyyat və kommunikasiyanın açılması - bunu demək çətindir;

Bu baxımdan, dördtərəfli görüşün müzakirə mövzularından birinin sülh paketinin son iki bəndi ola biləcəyini deyə bilərik.

Və Qərb masasında İrəvanın mövqeyinin ön planda olacağı görünür:

Birincisi, Ermənistanla yanaşı, Qərb - Avropa İttifaqı və Fransa kommunikasiyanın açılmasını “ölkələrin suveren hüquqları” əsasında olmasını, Zəngəzurun “yol məntiqi” ilə reallaşmasını istəyir;



İkincisi, delimitasiyası məsələsini bölgədə təsir rıçaqlarını gücləndirmək üçün vasitə kimi görən Qərbin qüvvələrini “müşahidə missiyası” adı ilə sərhədə gətirməsi gündəmdədir.

Müzakirə ediləcək digər məsələ isə Qarabağdakı “etnik ermənilər” ola bilər.

İrəvan sülh paketində “ərazi bütövlüyü” prinsipini qəbul etsə də, Xankəndidəki separatçıları “tərəfə” çevirmək iddiasını yenidən aktuallaşdırıb. Və Qərb, xüsusilə Fransa da bu mövqedən çıxış edir.

İlham Əliyevin dünən - görüşdən öncə Qarabağdakı ermənilərlə bağlı verdiyi açıqlama da buna hesablanmışdı.

Və bu məqamlar Praqa görüşündən nəticələrlə bağlı gözləntiləri azaldır:

Bakı dəhliz amilini sonraya saxlasa belə, sərhəd və Qarabağdakı “etnik ermənilər” məsələsində geri çəkilməyəcək;

İrəvan dəstək gördüyü Qərb masasında mövqeyini maksimum gücləndirməyə çalışacaq.

***Asif Nərimanlı***

# Liderlərin Praqa görüşü Moskvanı qıcıqlandırdı - Kremldən açıqlama

***Rusiya özünün müttəfiqi olan iki dövlət arasında münasibətlərin normallaşmasına hərtərəfli kömək göstərir.***

“Unikal” xəbər verir ki, bunu həftəlik brifinqdə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

“Bizim təkliflərimiz Bakı və İrəvana təqdim olunubr, Rusiya Xarici İşlər Nazirliyinin xüsusi nümayəndəsi İqor Xavayev sentyabrda bu mövzuda məsləhətləşmələr aparmaq üçün regiona bir sıra səfərlər edib. Hansısa formada bizim rolumuza şübhə etməyə çalışanlar və ya bizim fəaliyyətsizliyimizi söyləyənlər, mənə elə gəlir ki, öz arzularını dilər gətririlər. Biz praktiki iş görürük. Bəli, biz bunu hansısa bir tarix üçün edirik, ya da hansısa gözəl format üçün yox, amma elə bir şəkildə edirik ki, konkret nəticələrlə sabitləşsin. Biz hansısa reklam fəaliyyəti ilə məşğul deyilik, onun altında heç nə yoxdur, biz bunun əksini edirik - bacardıqlarımızdan danışırıq. Sülh müqaviləsi mövzusunun yüksək həssaslığını nəzərə alaraq, davam edən danışıqların təfərrüatlarını açıq şəkildə şərh etməyi yersiz hesab edirik. Bütün diqqətimizi nəticələrə yönəltmişik”, - Zaxarova bildirib.



Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) öz məsuliyyət zonasında sülhün və sabitliyin qorunmasında əsas rol oynayır. Bunu da Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə deyib. O xatırladıb ki, sabah, oktyabrın 7-də Təşkilatın 20 illik yubileyi qeyd olunur.

Zaxarovanın sözlərinə görə, məhz 2002-ci ilin 7 oktyabrında KTMT-nin Nizamnaməsi qəbul edilib. ”Nisbətən qısa müddət ərzində təşkilat layiqli yol keçib. Birgə səylər nəticəsində təhlükəsizlik məsələləri ilə məşğul olan effektiv struktur yaradılıb. KTMT həm də öz məsuliyyət sahəsində regional sabitliyin dəstəklənməsində əsas rol oynayır”.Zaxarova vurğulayıb ki, bu ilin yanvarında Qazaxıstanda sülhməramlı əməliyyatda iştirak hərbi-siyasi strukturun yetkinliyinin əyani təsdiqi olub. Rusiyalı diplomat əlavə edib ki, KTMT Kollektiv Qüvvələrinin BMT-nin himayəsi altında sülhməramlı əməliyyatlarda iştirakı üçün ardıcıl şərait yaradılır.

Rusiya KTMT-dəki tərəfdaşları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsini xarici siyasət prioritetlərindən biri hesab edir.

Xatırladaq ki, KTMT-yə altı ölkə daxildir: Ermənistan, Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan.

## Azərbaycanda aviabiletlər niyə bahadır? - Monopoliya yığışdırılmalıdır

***Son illər Azərbaycandan digər ölkələrə getmək üçün viza və s. kimi proseslər asanlaşdırılsa da, əksəriyyətin xaricə səfər etmək arzusu elə arzu olaraq da qalır. Qardaş ölkə Türkiyəyə belə sadəcə şəxsiyyət vəsiqəsi ilə getmək mümkün olduğu halda təyyarə biletləru çox baha olduğundan insanlar gedə bilmir.***

İqtisadçı-ekspert Asif İbrahimov Bakıvaxtı.az-a açıqlamasında bildirib ki, Azərbaycanda aviasərnişin daşımanı həyata keçirən təşkilat Azərbaycan Hava Yollarıdır: “Hər dəfə bunu deyirəm, qiymətin formalaşmasına təsir edən faktorlar onun maya dəyəridir. Yəni, maya dəyəri yüksək başa gəlirsə, həmin məhsulun qiyməti də bir az baha olur. Azərbaycan Hava Yollarında da aviasərnişin daşınmalarının həyata keçirilməsi çox baha başa gəlir. Bunu araşdırmaq müvafiq qurumların və AZAL rəhbərinin üzərinə düşür. Onlar qiyməti optimallaşdırmalı, maya dəyərini aşağı salmalıdırlar”.

A.İbrahimovun sözlərinə görə, bundan başqa, digər aviadaşıyıcı şirkətlərin iştirakını təmin etmək, rəqabət mühiti yaratmaq lazımdır ki, bu biabırçı vəziyyət öz həllini tapa bilsin: “Təsəvvür edin, Azərbaycan vətəndaşları Tiflisə biletləri 1-2 ay öncədən alırlar. Sizi inandırım ki, ora gedənlərin çox hissəsi istirahət üçün yox, Tiflisdən Avropaya uçmaq üçün gedirlər. Çünki orada aviasərnişin daşımaların qiyməti aşağıdır”.

İqtisadçı hesab edir ki, bu halların qarşısını almaq üçün AZAL-ın maya dəyərini aşağı salmaq və rəqabət mühiti yaradılmalıdır: “Bu sahədə monopoliya yığışdırılmalıdır”.

## İrandan Xəzəryanı ölkələr üçün yeni təklif

***İranın birinci vitse-prezidenti Məhəmməd Mohber Xəzər regionunda ümumi iqtisadi zona, eləcə də yaşıl gömrük dəhlizinin yaradılmasını təklif edib.***

İran rəsmisi bu barədə Xəzər İqtisadi Forumunda bildirib. “İran qonşu ölkələrlə, xüsusən də Xəzəryanı dövlətlərlə hərtərəfli əməkdaşlığın inkişafının tərəfdarıdır... Xəzəryanı ölkələrin dövlət və özəl sektorlarının böyük potensialından istifadə etmək üçün biz regionda ümumi iqtisadi zona yaratmağı təklif edirik. Bu təklifə eyni zamanda yaşıl gömrük dəhlizi də daxildir”, - deyə Mohber qeyd edib.

## "Rusiya Ukraynada hərbi əməliyyatları dayandırmağa hazırdır" - Şura sədri

***Rusiya Ukraynada hərbi əməliyyatları dayandırmağa hazırdır, ancaq Rusiya şərtləri ilə.***

”Unikal” ”İnterfaks”a istinadən xəbər verir ki, bunu Federasiya Şurasının sədri Valentina Matviyenko bildirib.

”Mən danışıqlardan danışanda, əlbəttə ki, onların mövzusu dörd yeni subyektin Rusiya Federasiyasına daxil olması ola bilməz, bundan söhbət gedə bilməz. Bu, artıq bizim Rusiyanın bir hissəsidir. Lakin biz növbəti hərbi əməliyyatları dayandırmağa hazırıq, ancaq Rusiyanın təklif edəcəyi şərtlərlə”, - deyə Matviyenko qeyd edib.

***Ağarza Elçinoğlu***

# İlham Əliyevdən sülh mesajı: "Xoş məram olarsa, sülh müqaviləsi ilin sonunadək imzalana bilər"



***"Ümid edirəm ki, biz sülhə yavaş-yavaş yaxınlaşırıq. Mən Şarl Mişelin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirirəm. Çünki bildiyiniz kimi, Brüsseldə bir neçə dəfə üçtərəfli görüş keçirilib və hər dəfə biz sülhə daha da yaxınlaşırıq".***

"Unikal" xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev oktyabrın 6-da Praqada Azərbaycan televiziya kanallarına müsahibəsində bildirib.

"Azərbaycan və Ermənistan xarici işlər nazirləri ilk görüşü keçirdilər və bunun arası kəsilməməlidir. Nazirlər tezliklə ikinci dəfə görüşməlidir və biz təklif etdik ki, bundan sonra hər iki ölkənin işçi qrupları bir araya gəlsinlər və bir neçə gün ərzində sülh müqaviləsinin mətninin hazırlanması ilə məşğul olsunlar. Yəni, bizim niyyətimiz bundan ibarətdir.

"Bu gün Fransa Prezidenti ilə görüş zamanı mən gördüm ki, bu beş prinsip qəbul edilir. Bu, təbiidir, çünki biz yeni heç nə icad etməmişik. Bu, münasibətləri normallaşdırmaq istəyən dövlətlər arasında münasibətlərə əsaslanan prinsiplərdir".

Erməni silahlı birləşmələri isə bu günə qədər bizim torpağımızdan çıxarılmayıb. Biz bunu tələb edirik. Düzdür, onların bir qismi çıxarılıb, amma onlar torpağımızda hələ də mövcuddur və ümid edirəm ki, buna da son qoyulacaq. Artıq bütün dünya ictimaiyyəti açıq dərk edir ki, Qarabağ Azərbaycandır! Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır və onların taleyini, onların gələcək həyatını hər hansı bir ölkə ilə, o cümlədən Ermənistanla müzakirə etmək fikrində deyilik. Bu, bizim daxili işimizdir.

Azərbaycan vətəndaşları hansı hüquqlara malikdirlərsə, ermənilər də o hüquqlara malik olacaqlar. Hər halda, əmin ola bilərlər ki, onların Azərbaycan cəmiyyətinə inteqrasiya edilmiş yaşayışı indiki yaşayışdan qat-qat yaxşı olacaq", - deyə Prezident vurğulayıb.

"Ermənistan tərəfindən xoş məram olarsa, sülh müqaviləsi ilin sonunadək imzalana bilər. Vaxt keçir, bizim təşəbbüslər heç də asan irəliləmir, xarici işlər nazirlərinin birinci görüşü konkret nəticələr verməsə də, amma hesab edirəm ki, bu, müsbət addımdır. Düşünürəm ki, yaxın vaxtlarda qərar qəbul edilərsə, iki ölkənin işçi qrupları sülh müqaviləsinin mətni üzərində işləməyə başlayacaqlar, biz ilin sonunadək razılaşmaya nail ola bilərik" deyə prezident əlavə edib.

Dövlət başçısı deyib ki, Azərbaycan tərəfdən elan edilən beş prinsiplə bağlı heç kimin - nə erməni tərəfinin, nə də Avropa Şurasının heç bir sualı yoxdur:

# Praqada Əliyev-Ərdoğan-Paşinyan görüşü: Növbəti raunda hazırlıq

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin və Çex Respublikasının Baş naziri Petr Fialanın dəvəti ilə "Avropa siyasi birliyi" Zirvə Toplantısında iştirak etmək üçün Praqada səfərdədir.***



"Unikal" xəbər verir ki, oktyabrın 6-da Azərbaycan Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə görüşü olub.

Görüşdə Ermənistan-Azərbaycan əlaqələrinin normallaşdırılması istiqamətində Brüsseldə Şarl Mişelin iştirakı ilə keçirilmiş görüşlərin əhəmiyyəti qeyd olundu. Prezident İlham Əliyev Şarl Mişelə vasitəçilik missiyasına görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Brüssel formatını dəstəklədiyini qeyd etdi.

Şarl Mişel bununla bağlı dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı gələn ay Brüsseldə keçirilməsi nəzərdə tutulan üçtərəfli görüşün gündəliyi müzakirə olundu.

Görüşdə Azərbaycan-Avropa İttifaqı tərəfdaşlıq əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Praqa şəhərində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında qeyri-rəsmi görüş olub.

Görüş Avropa Siyasi Birliyi liderlərinin sammitindən əvvəl baş tutub. Hər üç ölkənin liderləri ilk dəfə olaraq üçtərəfli formatda bir araya gəliblər.

***İnformasiya şöbəsi***

# Əli Əsədov Mixail Mişustinlə vəziyyəti müzakirə etdi

***Moskvada Azərbaycan Baş naziri Əli Əsədovla Rusiya hökumətinin sədri Mixail Mişustin ikitərəfli arasında görüş keçirilib.***

"Unikal" xəbər verir ki, Xəzər İqtisadiyyat Forumu çərçivəsində keçirilən görüşdə Azərbaycan-Rusiya münasibətləri, iki ölkə arasında müxtəlif sahələrdəki əlaqələrin vəziyyəti müzakirə olunub.

M. Mişustin ölkəsinin Azərbaycanla dostluq münasibətlərini yüksək qiymətləndirdiyini söyləyib. O, xalqlarımızı çox illik tarixi əlaqələrin bağladığını qeyd edib. Bu ilin fevral ayında iki ölkə arasında Moskvada müttəfiqlik haqqında Bəyannamənin imzalanmasını ölkələrimiz arasındakı münasibətlərin daha yüksək səviyyəyə çıxardığını vurğulayan Rusiya hökumətinin sədri bildirib ki, iki ölkə arasından bütün sahələrdə əməkdaşlıq, ilk növbədə iqtisadi-ticarət sahəsində əməkdaşlığı müsbət nəticələr verir.Əli Əsədov iki ölkə arasında münasibətlərin dövlət başçıları İlham Əliyev və Vladimir Putininin fəaliyyəti sayəsində yüksək səviyyədə olduğunu söyləyib. Azərbaycan Baş naziri bildirib ki, Rusiya Federasiyası hər zaman Azərbaycan üçün vacib siyasi və iqtisadi tərəfdaş olub və belə qalmaqda davam edir.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Paşinyan Praqa görüşü sonrası Rusiyaya gedəcək

***Vladimir Putin 70 illik yubileyini Sankt-Peterburqda MDB ölkələrinin başçıları ilə birlikdə qeyd edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə Kreml sözçüsü Dmitri Peskov jurnalistlərə bildirib. "MDB ölkələri liderlərinin qeyri-rəsmi görüşü oktyabrın 7-nə planlaşdırılıb, o, Sankt-Peterburqdakı Konstantinovski sarayında keçiriləcək", - Putinin sözçüsü deyib.

Ermənistanın Baş naziri Nikol Paşinyan MDB-nin Sankt-Peterburqda keçiriləcək qeyri-rəsmi sammitində iştirakını təsdiqləyib.

Qeyd edək ki, MDB ölkəsi kimi Azərbaycanın sözügedən tədbirdə iştirakı ilə bağlı hələlik rəsmi məlumat yoxdur.

# İlham Əliyev, Paşinyan, Makron və Şarl Mişel arasında görüş keçirildi

***Oktyabrın 6-da Praqada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Respublikasının Prezidenti Emmanuel Makron, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə görüşü keçirilib.***



"Unikal" xəbər verir ki, görüş "Avropa siyasi birliyi" Zirvə Toplantısı çərçivəsində keçirilib.

Bu dördtərəfli görüşün Şarl Mişel və Emmanuel Makron tərəfindən təşkil edildiyini qeyd edən Prezident Ilham Əliyev deyib:

"Bu görüş zamanı da önəmli məsələlər müzakirə edilib və hesab edirəm ki, bu görüşün də sülh müqaviləsinə çatmaq üçün önəmi olacaqdır. Hələ ki, təmaslar davam edir. Biz razılaşdıq ki, şam yeməyindən sonra yenə də bir araya gələk. Hər halda, sülh prosesinə artıq təkan verildi".

# Azərbaycanda koronavirusa yoluxanların sayı azaldı

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 72 yeni yoluxma faktı qeydə alınıb, 151 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib.

Azərbaycanda son sutkada koronavirus (COVID-19) əleyhinə 856 vaksin vurulub. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 341, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 162, üç və daha çox doza vaksin vurduranların sayı 301 pozitiv nəticədən sonra buster doza üzrə vaksinasiya olunanların sayı isə 52 nəfərdir.

# Altı azərbaycanlı hərbçi işgəncələrla öldürülüb - Rəsmi

***"Erməni hərbçilər tərəfindən işgəncələrlə öldürülən və həmin görüntüləri yayılan 6 nəfər azərbaycanlının nəşi Azərbaycan tərəfinə təhvil verilib".***

"Unikal" xəbər verir ki, bunu Baş Prokurorluğun İstintaq idarəsinin rəisi Nemət Əvəzov Ermənistanın silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən 1988-ci ildən bu günədək Azərbaycana qarşı törədilmiş cinayətlərə dair Baş Prokurorluq və Xarici İşlər Nazirliyinin birgə brifinqində sualı cavablandırarkən deyib.

O qeyd edib ki, sosial şəbəkələrdə yayılan digər görüntülərlə bağlı istintaq qrupu tərəfindən araşdırmalar davam etdirilir.




Baş prokuror Kamran Əliyev də çıxışında Ermənistan hərbçilərinin törətdiyi qeyri-insani davranışlarla bağlı görüntülərin olduğunu, lakin bu barədə qarşı tərəfin hər hansı araşdırma apardığını, rəsmi açıqlama vermədiyini əlavə edib.

# Beynəlxalq koalisiya Ermənistanı Xocalı soyqırımını tanımağa çağırıb




***Bu gün BMT İnsan Haqları Şurasının 51-ci sessiyası çərçivəsində "Etiraf və barışıq: sülh və ədalət yolunda vətəndaş cəmiyyəti dialoqunun rolu" adlı seminar keçirilib.***

"Unikal" xəbər verir ki, BMT-nin Cenevrədəki Ofisində keçirilən tədbiri "Xocalı: Barışıq üçün etiraf et" Koalisiyası təşkil edib.

Seminarda əsas məruzəçi kimi çıxış edən "Srebrenitsa Anaları" İctimai Birliyinin sədri, tanınmış hüquq müdafiəçisi Munira Subaşiç Srebrenitsa və Xocalı soyqırımı arasında bənzərliyə diqqəti çəkərək təəssüflə qeyd edib ki, Ermənistan rəhbərliyi Qarabağ münaqişəsi zamanı baş vermiş ən kütləvi qırğına görə məsuliyyəti hələ də qəbul etməyib: "Bu isə postmünaqişə dövründə iki xalq arasında dayanıqlı sülhün əldə olunması qarşısında əsas maneələrdən biridir. Etibar olmadan barışıq ola bilməz, həqiqət təsbit olmadan isə etibar bərqərar ola bilməz". M.Subaşiç Ermənistanı keçmişi ilə hesablaşmağa çağırıb.

Koalisiyanın təşəbbüskarı, Soyqırımı və Kütləvi Qırğınlara Qarşı Budapeşt Mərkəzinin sədri Giorgi Tatar 2020-ci il 10 noyabr atəşkəs razılaşması ilə uzun illər davam edən Qarabağ münaqişəsinə son qoyduğunu və xalqlar arasında barışıq üçün tarixi şansın yarandığına diqqəti çəkib. Bu ilin əvvəlində ATƏT platformasında təsis olunan Koalisiyanın bu məqsədə xidmət edəcəyini söyləyən keçmiş diplomat bildirib ki, yalnız Ermənistan Xocalı soyqırımını tanıyacağı və iki ölkənin cəmiyyətləri arasında bu mövzuda səmimi dialoqun bərqərar ediləcəyi halda barışıq səmimi və dayanıqlı ola bilər.

Tədbirin təşkilatçılarından biri, Fransanın Vicdan Azadlığı Uğurunda Koordinasiya Mərkəzinin prezidenti Tyeri Valle Azərbaycan-Ermənistan sərhədində ötən ay baş verən qarşıdurmadan sonra erməni sosial media seqmentində azərbaycanlılara qarşı "daha bir Xocalı yaşatmaq" çağırışlarına diqqəti çəkib. Bunu Ermənistanda Xocalı mövzusuna 30 il ərzində qoyulan qadağanın nəticəsi kimi qiymətləndirən fransalı hüquq müdafiəçisi vurğulayıb ki, Ermənistanı Xocalı sindromundan qurtarmağın zamanıdır".

Tədbirdə daha sonra çıxış edən İtaliya Helsinki Komitəsinin sədri professor Antonio Stanqo, Danimarka İnsan Hüquqları İnstitutu Şurasının üzvü Başi Qureyşi XX əsrdə baş verən qətliamlar və xalqlar arasında barışıq təcrübəsindən danışıblar. Ekspertlər qeyd edib ki, bütün müharibələr sonda sülh ilə bitir, lakin münaqişələr zamanı törədilmiş insanlığa qarşı cinayətlər uzun illər xalqlar arasında münasibətləri zəhərləyir. Natiqlər beynəlxalq təcrübədə "keçid ədaləti" modelinə uyğun olaraq cinayəti törətmiş tərəfin ilk olaraq faktı qəbul etməsi, faktı ört-basdır etməməsi, ağrılı mövzular ətrafında tərəflər arasında dialoqun qurulmasının sülhün əldə olunmasında qaçılmaz vasitə olduğunu qeyd ediblər.

Tədbirdə Koalisiya üzvləri tərəfindən aparılan müzakirələr nəticəsində qəbul edilən Kommünikedə Ermənistan rəhbərliyinə Xocalı soyqırımını tanımaq çağırışı ifadə olunub. Həmçinin Ermənistan və Azərbaycan vətəndaş cəmiyyətləri arasında birbaşa dialoq prosesini başlatmaq üçün Koalisiya üzvlərinin yaxın zamanlarda Azərbaycan və Ermənistana səfərlərinin təşkil olunacağı qeyd olunaraq, iki ölkə hökumətinə səfərlərə şərait yaradılması üçün müraciət edilib. Kommünikedə beynəlxalq təsisat və insan hüquqları təşkilatlarına müraciət olunaraq Koalisiyanın məqsədlərinə dəstək vermək barədə çağırış da öz əksini tapıb.



# Ərdoğan Ermənistana çağırış etdi

## Türkiyə prezidenti: Azərbaycanla sülh müqaviləsini imzalayın

***Türkiyə-Ermənistan-Azərbaycan münasiblərinin isinməsini, həll olunmasını istəyirik.***

"Unikal" xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Pragada mətbuat konfransı zamanı erməni jurnalistin sualına cavab olaraq bildirib.

O qeyd edib ki, Türkiyə və Ermənistan arasında hal-hazırda karqo və hava daşınmaları üzrə danışıqlar gedir, xüsusi nümayəndələr ilə xarici işlər nazirlikləri bunları müzakirə edir.

"Bizim ilkin şərtimiz yoxdur. Sadəcə olaraq Azərbaycanla aranızda sülh müqaviləsini imzalayın deyirik. Bundan sonra bizimlə bağlı heç bir problem qalmaz. Qapılarımızı, hava, qara və dəmir yollarımızı açarıq".

# Polkovnik Elnur Məmmədov həbs edildi

## Ehtiyatda olan polkovnik Elnur Məmmədov həbs edilib.

***Bakı Hərbi Məhkəməsində hakim Elbəy Allahverdiyevin sədrliyi ilə baş tutan prosesdə ona hökm oxunub. Hökmə əsasən, E.Məmmədov 6 ay müddətə azadlıqdan məhrum olunub.***

Qeyd edək ki, Müdafiə Nazirliyinin hüquq departamentinin rəisi Elçin Əliyev Elnur Məmmədova qarşı xüsusi ittiham qaydasında şikayət verib. Polkovnik Cinayət Məcəlləsinin 147.2-ci maddəsi ilə (Ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) təqsirli bilinib.

Xatırladaq ki, Elnur Məmmədov son günlərdə sosial şəbəkələrdə Müdafiə Nazirliyinin rəhbərliyini, o cümlədən Şəxsi Heyət Baş İdarəsi Kadrlar İdarəsinin rəisi general-mayor Elçin Xəlilovu tənqid etmişdi.

# Araz Əlizadə vəfat etdi

***Azərbaycan Sosial Demokrat Partiyasının sədri, sabiq deputat Araz Əlizadə bu gün gecə saatlarında dünyasını dəyişib.***

"Unikal" xəbər verir ki, bu barədə mərhumun oğlu məlumat verib.

O bildirib ki, onkoloji xəstəlikdən əziyyət çəkən atası bu gün günorta saatlarında Yasamal qəbiristanlığında dəfn ediləcək.

Qeyd edək ki, A. Əlizadənin noyabrın 3-ü 71 yaşı tamam olacaqdı.

# "Bəzi videolar saxtadır" - Kamran Əliyev

***"Bəzi ölkələrin və onların buradakı səfirliklərinin sosial şəbəkələrdə yayılan videogörüntülərlə bağlı birtərəfli mövqe tutur və bu da bizi narahat edir".***

"Unikal" xəbər verir ki, bunu Baş prokuror Kamran Əliyev deyib. Onun sözlərinə görə, prosesə müdaxilə ikili standartlardan xəbər verir: "Ermənistan ərazisində müharibə getməyib, əhali əziyyət çəkməyib. Videolar araşdırılmalıdır və nəticəsi barədə dəqiq məlumat verilməlidir".

Baş prokuror bildirib ki, istər Azərbaycan, istərsə də Ermənistan hərbçiləri tərəfindən işgəncə faktları ilə bağlı görüntülərin bəziləri saxta və ya doğrudur: "Təbii ki, bu kimi hallar araşdırılmalı və dəqiq məlumat təqdim olunmalıdır. Ermənistan yayılan görüntülərlə bağlı rəsmi bəyanat belə dərc etmədi. Azərbaycan isə dərhal məlum məsələni araşdırdı. Son videolar barədə də məlumatlıyıq, araşdırma aparılır. Hətta bəzi videolar saxtadır. Artıq aidiyyəti qurumlarla birgə istintaq qrupu da yaradılıb və nəticələr olacaq. Azərbaycan hökumətinə vaxtından əvvəl panika şəklində təsir göstərmək yolverilməzdir. Ermənistan tərəfindən də açıqlama olmalıdır".

# “Ölkədə monopoliya baş alıb gedir”

## Tahir Kərimli: “Kim isə sahibkarlıqla məşğul olmaq istəyirsə, "boğazına çöküb" imkan vermirlər, sonra həmin şəxs məcbur olur ki, açdığı işi də bağlasın”



***Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli ”Unikal”a müsahibə verib. Deputat paytaxt məktəbində şagirdin öz sinif yoldaşını döyərək videosunu sosial şəbəkələrdə paylaşmasından, qiymətlərin bahalaşmasından, Bakının tıxac probleminin aradan qaldırılması üçün atıla biləcək addımlardan və s. məsələlərdən danışıb.***

***-Tahir müəllim, bu günlərdə sosial şəbəkələrdə Bakıda yerləşən 112 saylı orta məktəbdə şagirdin sinif otağında məktəbli yoldaşı tərəfindən döyülməsinin görüntüləri yayılıb. Həmin görüntülər ciddi etirazlara səbəb olub. Belə halların baş verməməsi üçün hansı addımlar atılmalıdır?***

-Ən yaxşı həqiqət müqayisədə üzə çıxır. Sovet təhsil sistemində təlim, tərbiyə və təhsil vahid kompleks kimi götürülürdü. Həmişə təlim-tərbiyə üzrə direktor müavini olub. Onlar daim uşaqların maariflәndirilməsi ilə məşğul idilər. Həmçinin ailə komitələri onlarla sıx işləyirdi. Nadir hallarda xoşagəlməz nə isə baş verirdi. Sosializm dövründə demək olar ki, ailələrin sosial vəziyyətləri bir-birinə bərabər idi. Onların arasında çox az fərq olardı. İndi isə həddsiz varlı və kasıb ailələr var. Bunların ailə tərbiyələri tamamilə başqadır. Ona görə də məktəblərin üzərinə böyük yük düşməlidir ki, müəyyən işlər aparsınlar. Artıq məktəblərdə şagirdlərin eyni forma geyinməsi tətbiq olunub. Heç olmasa şagirdlər zahirən bir-birindən fərqlənməsinlər. Elə müəllim olur ki, öz şagirdini siqaret almağa göndərir. Belə hallar da yolverilməzdir. Cəmiyyətdə müəyyən mənəvi anarxiyanın olması da, məktəblərə təsir edir. Ona görə də belə xoşagəlməz hallar yaranır.

***-Belə hallarla bağlı müəllimin cəmiyyətdəki nüfuzu məsələsi də gündəmə gəlir. Onların əmək haqlarının az olduğu ilə bağlı fikirlər də səsləndirilir. Necə düşünürsüz, müəllimlərin maaşı nə qədər olmalıdır?***

-Rütbələr içərisində ən böyük rütbə müəllimdir. Hesab edirəm ki, müəllimlər üçün orta aylıq əmək haqqı 1000 manat olmalıdır. Müəllim ikinci valideyndir. Biz hər zaman müəllimi müqəddəs saymışıq. Müstəqillik dövründə müəllimlərin sosial vəziyyəti çox ağırlaşdı. Türkiyənin birinci prezidenti Mustafa Kamal Atatürk məsələ qaldırmışdı ki, nazir və deputatların maaşı müəllimin əmək haqqından çox ola bilməz. Ona görə də müəllimlərə kifayət qədər əmək haqqı və iş saatı verilməlidir. Həftədə 1-2 dəfə dərs deməklə iş olmaz. Belə olanda müəllimin məktəbə marağı olmur. O zaman evdə və ya kursda şagirdləri hazırlığa cəlb edirlər. Dövlət tərəfindən məktəblərə xeyli vəsait ayrılır. Bu pullar havayı gedir. Məktəblərdə keyfiyyət çox aşağı düşüb. Ona görə də ibtidai təhsildən başlayaraq tam orta təhsilə qədər ciddi yenilənmə olmalıdır. Sovet təhsili ilə Bolonya sisteminin qarışıq modelini tapmaq lazımdır. Biri aradan çıxdı, təzəsi gəldi, amma effekt vermədi. Müəllim şagirdi ancaq testə hazırladır. O da elə bil viktorinadır. Elə adam tanıyıram ki, imtahanda iştirak edib təsadüfi cavabları işarələyib, düz çıxıb. Belə olan halda balı aşağı olan şakird pullu ali məktəbə daxil olub. Ona görə də dərindən elm öyrədilməlidir. Bununla yanaşı, dərsliklər dəyişməlidir. Onların bəziləri çox yüklüdür, səhvlər var. Bu da uşaqlara pis təsir edir. Getdikcə problemlər daha çox genişlənir, öhdəsindən gəlmək olmur.

***-Ən çox müzakirə olunan məsələlərdən biri də qiymətlərin bahalaşması ilə bağlıdır. Növbəti ilin büdcəsi artıq təqdim olunub. Hər ilin yanvar ayında maaş və pensiyalarda artım olur. Növbəti ildə bu artımlar nə qədər olmalıdır ki, hazırkı bahalaşmanı kompensasiya edə bilsin?***

-Həm beynəlxalq miqyasda, həm də ölkəmizdə iqtisadçı alimlər var. Onlar hesab edirlər ki, heç bir ölkədə inflyasiyanın qarşısını almaq mümkün deyil. Onu konpensasiya etmək üçün əmək haqqı və pensiyanı müəyyən qədər artırmaq lazımdır. Rəsmi rəqəmlərdən fərqli olaraq həmişə bahalaşma, inflyasiya artırılan əmək haqqı və pensiyadan üstün olub. Ona görə də fərqlər daha çox ortaya çıxır. Əmək haqqı, pensiya artmasın, amma qiymətlər də qalxmasın. Ərzaq məhsullarının qiyməti hədsiz dərəcədə artıb. Bu insanları çox narahat edir. Pul çatışmazlığı insanları üzür. Ötən dəfə dedik ki, artım 10-40 faiz arasında olsun. Artım hardasa 25 faiz olmalı idi. Müşahidələrimə əsasən, artım 20 faizdən aşağı oldu. Hələ ki, ortada dəqiq rəqəm yoxdur. Növbəti ildə maaş, pensiya və müavinətlər 30-33 faiz artmalıdır. Bununla yanaşı enerji daşıyıcılarının qiymətləri artmalı deyil. Dövlət tərəfindən müəyyən sahələrə dotasiya ayrılmalıdır. Bu barədə hökumət düşünməlidir. Həmçinin, regionlarda istehsal düzgün təşkil olunmalıdır. Aqrar sahəyə elə bir kreditlər ayrılmalıdır ki, real nəticə versin. Demək olar hamı işləmək üçün rayonlardan Bakıya gəlir. Bizdə maliyyə bazarı, üzən məzənnə rejimi yoxdur. Monopoliya baş alıb gedir. Kim isə sahibkarlıqla məşğul olmaq istəyirsə, ”boğazına çöküb” imkan vermirlər. Sonra həmin şəxs məcbur olur ki, açdığı işi də bağlasın.

***-Siz də dövlət tərəfindən bəzi sahələrə dotasiyanın ayrılması ilə bağlı məsələyə toxundunuz. Bu yaxınlarda daşıyıcı şirkətlər ictimai nəqliyyatda gediş haqqının artırılması ilə bağlı hökumətə müraciət edib. Bu məsələ necə tənzimlənə bilər?***

-Populist şəkildə deyim ki, qiymətlərin artmasının əleyhinəyəm, hamıya da xoş gələr. Amma şirkətləri də başa düşmək lazımdır. Enerji daşıyıcısının qiyməti bahalaşır. Bununla yanaşı, avtobuslara texniki xidmət artır, onların təmiri zamanı istifadə olunan detalların qiyməti bahalaşır. O baxımdan daşıyıcı şirkətlər də qiymətlərin artırılmasını təklif edir. Bunların hamısı zəncirvari formada bir-birinə bağlıdır. Hazırda dövlətimizin pulu var. Ona görə də bu sahələrdə olan məsələləri dotasiya ilə həll etsin. Həmin şirkətlərin müraciəti araşdırılmalıdır ki, onların ehtiyacı nə qədərdir. Nəqliyyat xərcinin 50 faizini vətəndaş, 50 faizini isə dotasiya ilə dövlət ödəsin. Bəlkə 5-10 ilə xalqımızın rifahı o qədər yaxşı olacaq ki, hər şeyi bazar iqtisadiyyatı həll edəcək.

***-Nəqliyyat sektorundan danışdıq. Əvvəlki illərlə müqayisədə paytaxtda və onun ətrafında olan tıxaclar daha da artıb. Bunun qarşısının alınması üçün hansı işlər görülməlidir?***

-Bu məsələnin köklü həllini istəyiriksə, ilk növbədə mümkün olsa, paytaxt uyğun bir yerə köçürülməlidir. Bu olmadıqda, Bakıda olan bəzi ali təhsil müəssisələrini, nazirlik və komitələri digər rayonlara, şəhərlərə köçürmək olar. Əsas məsələ regionlarda iqtisadiyyat inkişaf etməlidir. Hamı bir köhnə maşın tapıb Bakıda takisilik edir və ya yük daşıyır. İnsanlar regionlardan Bakıya axır. Camaatın şəhərdən kəndə qayıtmağını təmin etmək lazımdır. Bunun üçün böyük proqramlar lazımdır. Faktiki ölkə əhalisinin yarısı və ya daha çoxu paytaxtdadır. İnsanlar iş tapa bilmir və hamısı Bakıya doluşub. Onların geri qayıtması stimullaşdırılmalıdır. İşğaldan azad olunmuş ərazilərlə bağlı Böyük Qayıdış proqramı başlayıb. Böyük qism əhali Qarabağa qayıdacaq. Bununla Bakının yükü bir az da azalacaq. Bakıda nəfəs almaq olmur.

İstanbulda olduğu kimi, bizdə də dəniz taksisi olsun. Məsələn, nədən mümkün olduğu halda, Bayılla Zığ arasında dəniz taksiləri işləməsin? Və yaxud vətəndaşlar dəniz avtobusları vasitəsilə hərəkət edə bilərlər. Bəzən deyirlər bu mümkün deyil. Amma deyərdim ki, bu, mümkündür. Bəzi dəniz altında olan qayalıqlar ola bilər. Onları dağıtmağa nə var? Hərəkət marşrutunu bir qədər dərindən keçirməklə də bunu etmək mümkündür. Dünyanın bir çox ölkələrində bu tətbiq olunub. Artıq Sumqayıtla Bakı birləşib. İnsanlar əziyyət çəkir. Su yolu ilə də hərəkət etmək mümkündür.

***Bir müddət əvvəl Şəhid Səbuhi Əhmədovun qardaşı Sənan Əhmədovun mənzillə təmin olunması ilə bağlı məsələ gündəm olmuşdu. Bu cür məsələlərin həlli üçün qanunvericiliyə dəyişiklik etmək mümkündürmü?***

-Şəhid ailəsi statusuna bacı-qardaş daxildir. Bir ailədə yaşamalıdırlar. Şəhid ailəsinə verilən 11 min manatlıq birdəfəlik yardım valideyni olmayanda, bacısı və ya qardaşına verilir. Yetkinlik yaşına qədər bir yerdə böyüyüblərsə, eyni ailə sayılırlar. Yetkinlik yaşından sonra bacı və ya qardaşın öz ailəsi varsa, onda şamil edilə bilmir. Amma bir ailədə, uşaqlar himayədədirsə, hamısı şəhid ailəsidir. Qanunun üstünə düşmüşük, amma burada başqa məsələ də var. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollegiyası yığışıb bir qərar qəbul etsə idi ki, bu şəhid ailəsinə bir deyil, ikiotaqlı mənzil verilsin, nə olacaqdı? Kim buna irad tutacaqdı? Hamı sağ ol, deyəcəkdi. Belə məsələlərə həssas yanaşmaq lazımdır. Həmçinin, o qədər imkanı olan ailələr var. Onlardan biri ikiotaqlı mənzil alıb hədiyyə edərdi. Kaş bizim imkanımız olaydı, hamısına bu cür yardımlar edərdik. Bir məsələ ilə razıyam ki, qanunvericilikdə ailə üzvü ilə bağlı məqama diqqət eləmək lazımdır.

***Anar Kəlbiyev***

# Emin Əmrullayev üçün "yolun sonu" görünməyə başladı

## Ölkə təhsilindəki problemləri bəzəkli cümlələrlə nə gizlətmək, nə də düzəltmək mümkündür

***Az qala, elə bir həftə yoxdur ki, yazılı və elektron mətbuatdan tutmuş sosial şəbəkələrədək təhsil müəssisələrində yaşanan hansısa qalmaqal xəbər müzakirə mövzusu olmasın. Gah hansısa məktəb direktorunun müəllimlərdən, müəllimlərin valideynlərdən rüşvət istəməsinə, tələb etməsinə dair səs yazısı yayılır, gah da hansısa məktəbin şagirdləri arzuolunmaz, xoşagəlməz davranışlarla ölkə gündəmini zəbt edir. Bir sözlə, Azərbaycan təhsili deyərkən biz hələ də uğurlu nəticələrdən çox, qalmaqallı hadisələrdən danışırıq.***



Halbuki, Emin Əmrullayev təhsil naziri postuna təyin edildikdən sonra gözə də, qulağa da xoş gələn mesajlar vermişdi. Bu sahənin rüşvətsizləşdirilməsi və şəffaflaşdırılması baxımından əməli addımların atılacağını anons etmişdi. Lakin Əmrullayevin nazir təyin edilməsindən iki ildən çox vaxt keçsə də təhsil müəssisələrində qanunsuz pul yığımları nəinki azalıb, hətta son bir neçə ayda ictimailəşdirilən səs yazılarından belə anlamaq olar ki, vəziyyət daha da acınacaqlı hal alıb. Yaxud, ölkəmizin növbəti illərdə əsas hədəflərini göstərən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" adlanan sənəddə təhsilin də məqsədi müəyyənləşdirilib, qarşısında duran hədəflər öz əksini tapıb. Bu sənədi qiymətləndirən Əmrullayev bildirmişdi ki, həmin sənədlə qarşıya qoyulan 2 böyük hədəfdən birincisi beynəlxalq qiymətləndirmələrdə Azərbaycanın topladığı balı yüksəltməkdir. Nazir hazırda 402 bal təşkil edən həmin nəticəni 2028-ci ildə 422 bala qaldırmağın hədəfləndiyini demişdi. Ali təhsil müəssisələrimizdən isə, heç olmasa, 2 universitetin dünyanın ən yaxşı 800 universiteti sırasına daxil olmasını növbəti illərin digər əsas hədəfi kimi planlaşdırıldığını vurğulamışdı.

Əlbəttə, qarşıya konkret hədəflər, məqsədlər qoymaq önəmlidir. Lakin daha önəmlisi bu hədəflərə, məqsədlərə çatmaq üçün konkret, əməli iş görməkdir.

Mümkündür ki, Təhsil Nazirliyi yaxın dövr üçün planlarını yerinə yetirə bilmək üçün çalışır, ancaq fakt burasındadır ki, biz təhsil sahəsində hələ də 10-15 il öncənin, Misir Mərdanov dövrünün problemlərini müşahidə və müzakirə edirik.

Məktəblərdə rüşvət qalırmı? Qalır. Müəllim-valideyn, müəllim-şagird münasibətləri daha çox mənfəətlər müstəvisində mövcud olmağa davam edirmi? Edir.

Təhsilimizin yükü hələ də əsasən repetitorların çiynindədirmi? Çiynindədir.

Hələ də 1-5 yaşında olan uşaqların üçdə ikisi məktəbəqədər təhsildən məhrumdur? Məhrumdur.

Məktəbəqədər təhsildə keyfiyyət təminatı sisteminin yaradılması hələ də söz olaraq qalır? Qalır.

Ali məktəblərdə təhsilhaqqı ilə təhsilin keyfiyyəti bir-birinə tərs-mütənasibdirmi? Tərs-mütənasibdir.

Təhsil Nazirliyinin xətti ilə keçirilən dövlət satınalmalarının şəffaflığı şübhə doğururmu? Doğurur.

Bu tenderlərdə iştirak edən şirkətlərlə bağlı çoxsaylı suallar ortaya çıxırmı? Çıxır.

Regional universitetlərin funksionallığı ilə bağlı şübhələr mövcuddurmu? Mövcuddur.

Həmin universitetlərdə təhsilin keyfiyyətindən çox, neqativ məsələlər müzakirə olunurmu? Olunur.

Müəllim hazırlığı və kadrların yerləşdirilməsində problemlər hələ də aktualdırmı? Aktualdır.

Azərbaycanda orta təhsilin keyfiyyəti və təhsilə əlçatanlıq baxımından çox ciddi regional, coğrafi fərqlər aradan qaldırılıbmı? Xeyr.

Müəllimlər məktəbdən çox repetitorluğa üstünlük verirmi? Birmənalı olaraq, bəli.

Ali məktəblərdə elmi tədqiqatların və innovasiyaların inkişafı daha çox kağız üzərindədirmi? Yenə də, birmənalı olaraq bəli.

Bu siyahını çox uzatmaq olar. Lakin ehtiyac görmürük. Təkcə yuxarıda sadalananlar onu göstərir ki, Emin Əmrullayev və komandası ölkə təhsilini tamamilə yeni mərhələyə daşımaq baxımından hələlik ciddi nəticələrə layiq ola bilməyib. Nazir və əməkdaşlarının iki ildir mediaya verdikləri açıqlamalar yalnız ümid və gözlənti yaradır. Lakin ümid və gözləntilərlə vidalaşıb konkret nailiyyətlərin əldə olunmasının vaxtı çoxdan çatıb. Əgər bir müddət də belə davam etsə, biz çox keçmədən Əmrullayevin postunda başqa birini görə bilərik.

Düzdür, təhsildə islahatlar uzunmüddətli prosesdir, qısa zamanda böyük uğurların qazanılması müşkül məsələdir. Lakin ən azından son iki ildə bir sıra problemləri həll eləmək, məsələn, təhsil sahəsini rüşvətdən, korrupsiyadan təmizləmək, müsbət istiqamətdə köklü dəyişiklik prosesinin önünü açmaq olardı. Ancaq biz nə yazıq ki, əksini müşahidə eləyirik.

Qısası, bəzəkli cümlələrlə illər itirilir. Belə davam edərsə, axırda kreslonu itirmək də qaçılmazdır.

***Sənan Mirzə***



# Baş nazir qərar verdi

## Yol hərəkəti təhlükəsizliyi Komissiyasının adı dəyişdirildi

***Nazirlər Kabinetinin Yol hərəkəti təhlükəsizliyi Komissiyasının adı dəyişdirilib və yeni tərkibi təsdiqlənib.***

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, komissiya Nazirlər Kabinetinin Yol hərəkətinin təşkili, tənzimlənməsi və təhlükəsizliyi üzrə Komissiyası adlandırılıb.

**Komissiyanın yeni tərkibi aşağıdakı kimidir:**

**Komissiyanın sədri**

Şahin Mustafayev - Baş nazirin müavini

**Komissiyanın üzvləri:**

İqtisadiyyat nazirinin birinci müavini

Fövqəladə hallar nazirinin birinci müavini

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Ədliyyə nazirinin müavini

Maliyyə nazirinin müavini

Dövlət Gömrük Komitəsi sədrinin müavini

Dövlət Şəhərsalma və Arxitektura **Komitəsi sədrinin müavini**

Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri

"Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri

Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi

Bakı Şəhər İcra Hakimiyyəti başçısının Aparatının rəhbəri.

# Pensiyaların ödəniləcəyi tarix açıqlandı

***Oktyabrın 7-də Bakı və Sumqayıt şəhərləri, eləcə də Abşeron rayonu üzrə pensiyaların ödənilməsi nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Sosial Müdafiə Fondu məlumat yayıb.

Qeyd edək ki, 2022-ci ildə ödənilən 200 manat maddi yardımın növbəti rüb üzrə veriləcək 50 manatı da oktyabr ayının pensiyasının üzərinə əlavə olunacaq.

Güzəştli şərtlərlə pensiya hüququna malik şəxslərin pensiyaları bu ay da qrafik üzrə ödəniləcək.

# Azad edilmiş əraziyə keçmək istəyən şəxs həbs olundu

***Füzuli Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi tədbirlər nəticəsində işğaldan azad edilmiş və partlayıcı vasitələrdən tam təmizlənməmiş ərazilərə müvafiq icazələri olmadan keçməyə cəhd göstərən şəxslər saxlanılaraq inzibati qaydada məsuliyyətə cəlb olunublar.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan "Unikal"a verilən məlumata görə, rayon sakinləri Xəyal Quliyev və Sahil Rüstəmov idarə etdikləri avtomobillərlə işğaldan azad edilmiş ərazilərə daxil olmaq istəyərkən nəzarət qaydasına uyğun olaraq post ərazisində polis əməkdaşları tərəfindən saxlanılıblar. Yoxlamalar zamanı həmmin şəxslərin müvafiq icazələri olmadığı müəyyən edilib və barələrində protokollar tərtib edilərək rayon məhkəməsinə göndərilib.

Məhkəmənin qərarına əsasən X.Quliyev 10 gün müddətinə həbs, S.Rüstəmov isə inzibati qaydada cərimə edilib.

# Azərbaycan və Türkiyə HDQ-nin xüsusi təyinatlıları birgə təlimdə



***2022-ci ilin planına əsasən Türkiyə Respublikasının Marmaris şəhərində Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) dəniz xüsusi taborlarının sualtı hücum (SAH) və sualtı müdafiə (SAM) bölmələri ilə Türkiyə HDQ xüsusi təyinatlı bölmələri birgə təlim keçir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib.

Aksaz dəniz bazasında keçirilən təlimdə hər iki qardaş ölkənin hərbi qulluqçuları quru və dəniz taktikalarının işlənməsi, partlamamış döyüş sursatlarının və dəniz minalarının axtarışı, eləcə də məhv edilməsi üzrə tapşırıqları icra edəcəklər.

Təlim iştirakçıları plana əsasən gecə və gündüz şəraitində fərdi və qrup şəklində taktiki atışlar, qarışıq qruplar şəklində birgə marş, pusqu və basqın, eləcə də dənizdə xüsusi qapalı sualtı tənəffüs aparatlarından istifadə etməklə uzun məsafələrə sualtı üzmə tapşırıqları yerinə yetirəcəklər.

Təlim oktyabrın 14-dək davam edəcək.

# Bu məhsullara görə ƏDV qaytarılması dayandırılıb

***Oktyabrın 1-dən alkoqollu içkilər və tütün məmulatlarının alışına görə ƏDV-nin bir hissəsi geri qaytarılmır.***



Bu barədə "Unikal"a İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirilib.

Qeyd edilib ki, 2022-ci ilin yanvarın 1-dən Vergi Məcəlləsində əlavə və dəyişikliklər edilib ki, bu dəyişikliklərin bir istiqaməti də "ƏDV geri al" mexanizminin təkmilləşdirilməsi çərçivəsində avtomobillər, alkoqollu içkilər və tütün məmulatlarının alışına ƏDV-nin qaytarılmasının istisna edilməsi ilə bağlıdır.

Dəyişikliyə əsasən, 2022-ci il oktyabrın 1-dən etibarən istehlakçılar tərəfindən alınmış alkoqollu içkilərə və tütün məmulatlarına münasibətdə ƏDV geri qaytarılmır.

Belə ki, alkoqollu içkilərin və tütün məmulatlarının əhalinin sağlamlığına mənfi təsir göstərən zərərli məhsullar olduğunu nəzərə alaraq, həmin məhsullar ƏDV-nin geri qaytarılması şəklində stimullaşdırıcı tədbirlərin dairəsindən çıxarılıb. Bununla yanaşı, "ƏDV geri al" mexanizminin tətbiqinə başlandıqdan ötən müddət ərzində aparılan təhlillər nəticəsində, ƏDV-nin qaytarılması prosesində xüsusilə alkoqollu içkilər və tütün məmulatlarının alqı-satqısı zamanı suiistifadə hallarının yaranması müşahidə olunub.

Əlavə olaraq bildiririk ki, Vergi Məcəlləsinə edilmiş dəyişiklik ilə ƏDV-nin geri qaytarılması mexanizmi pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti ilə yanaşı, 2022-ci il 1 yanvar tarixindən etibarən tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlərə də aid edilir.

# Füzulidə silah-sursat aşkarlandı

***Füzuli Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən işğaldan azad edilmiş ərazilərdəki tərk edilmiş hərbi mövqelərdən silah-sursatın və partlayıcı vasitələrin toplanması istiqamətində intensiv tədbirlər davam etdirilir.***

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Füzuli Rayon Polis Şöbəsinin əməkdaşlarının rayon ərazisində keçirdikləri növbəti tədbirlər zamanı müxtəlif silah-sursat aşkar ediblər.

Tapılan 6 avtomat, 1 qumbaraatan, 1 pulemyot, 12 əl qumbarası, 3853 müxtəlif çaplı patronlar və digər döyüş sursatları aidiyyəti üzrə təhvil verilib.

# Diasporla İş üzrə Dövlət Komitəsi üçün "oyanış vaxtı"...

## Bu qurum Nazim İbrahimovun zamanından qalma qeyri-effektiv fəaliyyət metodlarından tamamilə imtina etməlidir



***2018-ci ilin aprel ayında Nazim İbrahimov Diasporla İş üzrə Dövlət Komitəsinin sədri vəzifəsindən uzaqlaşdırıldıqdan sonra ciddi gözləntilər yaranmışdı.***

Fəaliyyəti dövründə qalmaqallı məmur kimi yadda qalan, daha çox oliqarx imici ilə tanınan, hətta işdən çıxarıldıqdan sonra Prezident Administrasiyasının ovaxtkı rəhbəri Ramiz Mehdiyev tərəfindən birbaşa korrupsiyada ittiham olunan, bundan sonra həbsi belə gündəmə gələn sabiq komitə sədrinin vəzifədən kənarlaşdırılması ilə cəmiyyət diaspor sahəsində uzun illərdən bəri yığılıb qalan problemlərin həlli istiqamətində ciddi addımların atılacağına, köklü dəyişikliklərin yaşanacağına ümid bəsləyirdi.

İbrahimovun yerinə təyin olunan Fuad Muradovun 4 ildən bir qədər artıq müddətdir davam edən sədrlik dönəmində müsbət istiqamətdə hər hansı dəyişikliyin baş vermədiyini söyləmək haqsızlıq olardı. Xüsusilə də xaricdəki diaspor təşkilatları arasında inciklərin xeyli dərəcədə aradan qalxdığını söyləmək mümkündür. Lakin ümumilikdə Azərbaycan diasporunun güclənməsi və ölkədən kənarda Azərbaycanın maraqlarının müdafiəsi baxımından yekdil, mütəşəkkil qüvvə kimi çıxış etməsi baxımından problemlər qalır. Ən əsası isə diasporumuzun fəlaiyyətində hələ də kreativlik müşayiət olunmur. Hər hansı mühüm hadisə ilə bağlı diaspor təşkilatlarının bəyanatlarla çıxış etməsi təbii ki, təqdirəlayiqdir, əhəmiyyətlidir. Lakin artıq bəyanat mərhələsini aşmaq, hansısa xarici ölkə mətbuatında milli mənafelərimizə uyğun materialların nəşrini əsas iş kimi göstərmək dövrü ilə vidalaşmaq lazımdır.

Azərbaycan diasporu özəlliklə erməni diasporunun yalan təbliğatını ifşa etmək, eyni zamanda ölkəmizin haqq işinin müdafiəsi, milli həqiqətlərimizin beynəlxalq ictimaiyyətə çatdırılması baxımından yeni metodlar fikirləşib tapmalıdır. Həmçinin, mütəşəkkil fəaliyyət imkanlarını bir daha gözdən keçirməli, bu prosesi ən qısa vaxtda tamamlamalıdır. Sadalananlarda Diasporla İş üzrə Dövlət Komitəsinin rolu isə danılmazdır - bu qurum yalnız koordinasiya funksiyasını yerinə yetirməməli, eyni zamanda diasporumuzun böyüməsi və genişlənməsi baxımından öncülük etməlidir. Daha da dəqiq desək, Azərbaycan diasporunun effektiv fəaliyyəti üçün yolgöstərici funksiyasını yerinə yetirməlidir. Xaricdəki diaspor təşkilatlarımızın işini zamanın çağırışlarına və standartlarına uyğun qurması üçün onları, bir növ, maarifləndirməli, bu çağırış və standartlara cavab verən fəaliyyət metodlarını işləyib hazırlamalıdır. Sözügedən təşkilatların rəhbərliyində hazırlıqlı, təcrübəli, çalışqan şəxslərin təmsil olunmasına məxsusi diqqət yetirilməlidir.

Kiçik bir nümunə. Bu günlərdə xaricdəki səfirliklərimizə qarşı təxribatçı davranışlara etiraz olaraq diaspor təşkilatlarımızın etiraz aksiyaları təşkil etməsi alqışlanandır. Lakin həmin aksiyalardan foto və videoşəkillərə baxanda bir yandan iştirakçı sayının azlığı, digər tərəfdən isə etirazın sadəcə ənənəvi üsulla ifadə olunması diqqət çəkdi. Halbuki hər hansı ölkədə Azərbaycana qarşı yönələn provakativ addımlar zamanı diaspor təşkilatlarımızın həmin ölkə ictimaiyyətinin diqqətini çəkəcək daha kreativ etiraz üsulları üzərində düşünməsi yaxşı olardı, eyni zamanda, hansısa aksiya təşkil edilirsə iştirakçıların sayı məsələsinə diqqət ayrılmalıdır. Aydın görünməlidir ki, Azərbaycan diasporu artıq təsir imkanları və nüfuz baxımından ciddi qüvvədir. Bu, xaricdəki erməni diasporunu və lobbisini öz hüdudsuz həyasızlıqlarından xeyli dərəcədə çəkindirərdi. Açıq şəkildə görünərdi ki, ölkəmiz dünyanın heç bir yerində, eləcə də ermənilərin və onların təəssübkeşlərinin sayca çoxluq təşkil etdiyi ölkələrdə belə artıq müdafiəsiz deyil!

Dünya Azərbaycanlılarının sonuncu - V qurultayı bu il azad Şuşada keçirildi. Bu, şübhəsiz ki, tarixi hadisə idi. Qurultay yüksək səviyyədə baş tutdu. Lakin bir məqamı da vurğulamadan keçə bilmərik. Xaricdəki soydaşlarımızın bir hissəsi haqlı olaraq belə düşünür ki, dünya azərbaycanlılarının qurultayları artıq daha praktik əhəmiyyət daşımalıdır. Yəni, bir qurultaydan digərinə qədər olan dövrün hesabatından çox, diaspor sahəsindəki problemlərin müəyyənləşdirilməsi və həmin problemlərin həlli baxımından konkret addımların atılması ilə yadda qalmalıdır. Məsələn, Avropa ölkələrində, ABŞ və Kanadada yaşadığı ölkənin vətəndaşlığını almış və həmin ölkələrdə səsvermə hüquqları olan ciddi sayda azərbaycanlı və Azərbaycan əsilli vətəndaş var. Bu vətəndaşlarımızın bərabər hərəkət etməsini, beləliklə, yaşadıqları ölkələrin siyasi həyatında güclü rol qazanmasını təmin eləmək çox çətin deyil. Yetər ki, Diasporla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə atılacaq addımları dəqiq şəkildə ortaya qoysun.

Bir sözlə, Nazim İbrahimovun zamanına xas olan, kifayət qədər köhnəlmiş, ənənəvi, əksər hallarda kosmetik (və qeyri-effektiv!) fəaliyyət metodları ilə tamam vidalaşmağın vaxtıdır. Unutmayaq ki, 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərdən sonra nəinki ölkə daxilində, eyni zamanda ölkə xaricində də yeni situasiya yaranıb. Hər bir azərbaycanlının öz işini bu situasiyaya uyğunlaşdırması isə qaçılmaz zərurətdir. Bu zərurəti sözdən əmələ keçirmək isə Diasporla İş üzrə Dövlət Komitəsinin bir nömrəli vəzifəsidir.

***Toğrul Əliyev***

# Hacıbala Abutalıbovun Bakıya yaşatdığı "yaşıllıq faciəsi"

## Paytaxtla bağlı ürəkağrıdan statistika açıqlandı - keçmiş mer bu rəqəmlərə nə deyəcək?

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi oktyabrın 6-da paytaxt Bakı ilə bağlı ilginc bir statistika açıqladı. Bu statistika əslində ürək ağrıdır - belə ki, nazirliyin məlumatına görə, Bakıda yaşıllıq sahələrinin həcmi cəmig 920 hektardır! Bəli, bəli, 920 hektar!***

İqtisadçı Rövşən Ağayevin öz facebook hesabında haqlı olaraq qeyd etdiyi kimi, ümumi ərazisi 214 min hektar olan meqapolis üçün faciəvi səviyyədə aşağı bir göstəricidir - çünki belə məlum olur, paytaxtın ümumi ərazisinin hətta 0.5%-i belə yaşıllıq sahəsi deyil!

Həmin göstərici isə digər ölkələrin müxtəlif şəhərləri ilə müqayisədə kəskin şəkildə aşağıdır. Məsələn, yaşıllıq İstanbulda 2.2%, Tokioda 7,5%, Parisdə 9.5%, Berlində 14,4%, Nyu-Yorkda 27%, Londonda 33%, Vyanada 45%, Osloda 68% təşkil edir.

"Yaşıllıq sahəsi dedikdə çıxarıb.

Onu da deyək ki, ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev deyib ki, 2040-cı ilə qədər Bakı Bulvarının ərazisinin genişləndirilməsi, paytaxtda yaşıllıqların sahəsinin təxminən 3-4 dəfə artırılması nəzərdə tutulur: "Paytaxtın yeni Baş Planı çərçivəsində bulvarın uzunluğu 25 km-dən çox olacaq. Bakıda yaşıllıq sahəsinin isə indiki 920 hektardan 3 169 hektara çatdırılması planlaşdırılır", - deyə o, qeyd edib.

Bu açıqlama sevindiricidir, alqışa və təqdirəlayiqdir. Lakin Bakının yaşıllıq problemini çözmək üçün ilk növbədə bəzi məmurların və onların himayəsindəki iş adamlarının paytaxtda ağaclara, kollara qənim kəsilməsi sərt şəkildə önlənməlidir. Açıq danışaq: illərdir kimlərinsə maddi maraqları və şəxsi biznes ehtirası naminə Bakıdakı yaşıllıqların məhvi "ənənəyə" çevrilib. Xüsusilə paytaxtın sabiq başçısı Hacıbala önündədir - bir zamanlar həm də öz yaşıllıqları ilə füsunkar olan Bakı indi bu göstəricidə əksər paytaxtlara, iri şəhərlərə uduzur.

Yeri gəlmişkən, bir məqamı da vurğulamadan keçmək olmaz. Rəsmi rəqəmlərə görə, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə ilə bağlı investisiyaların həcmi azalıb. Əgər 2019-cu ildə Azərbaycanda bu məqsədlər üçün 310 milyon manat yatırım edilmişdisə, 2020-ci ildə bu rəqəm cəmi 170 milyon manata geriləyib. 2021-ci ildə isə belə yatırımlar daha da azalaraq 71 milyon manat olub. İnvestisiyaların azalması hansı səbəblərlə bağlıdır? Bu suala konkret cavab verməк çətindir. Üstəlik, unutmayaq ki, ayrılan vəsaitlərin məbləği ilə yanaşı, şəffaf, təyinatı üzrə xərclənməsi də önəmlidir. Hətta ötən il üçün müəyyənləşdirilmiş vəsaitlə də ölkə üzrə ətraf mühitin mühafizəsini təşkil və təbii resurslardan səmərəli istifadə ilə bağlı da



bütünlükdə ictimai istifadədə olan meşə, park və bağçaların ərazisi nəzərdə tutulur. Bakının 0.5%-lik yaşıllıq göstəricisi bizim ekoloji baxımdan nə dərəcədə əlverişsiz bir ərazidə yaşadığımızı göstərir. Ən böyük fəlakət odur ki, yaşıllıqdan bu qədər yoxsul şəhər son 20 ildə olanqalan yaşıllıqların məhv edilməsilə nəhəng tikinti meydançasına çevrilib" deyə ekspert vurğulayıb.

Bakı ilə bərabər Abşeronda da eyni fəlakəti yaşayır. Məsələn, Xırdalanda son 15 ildə potensial olaraq park və ya meşə zolağına çevrilə biləcək 2 böyük ərazinin sıx məskunlaşma ərazisinə çevrilməsi təkcə ekoloji fəlakətə yox, həm də demoqrafik və nəqliyyat böhranına gətirib Abutalıbovun zamanında bu tendensiya xeyli güclənmişdi. Yüksək mərtəbəli binaların, ticarət, ictimai iaşə obyektlərinin tikintisi üçün ağacların qurban seçilməsi adət halını almışdı. İş o yerə çatmışdı ki, paytaxtın Xətai, Yasamal, Nizami, Nəsimi kimi iri rayonları medianın gündəminə yalnız yaşıllıqların məhvi ilə bağlı xəbərlərlə gəlirdi. Bakını, az qala, özü boyda tikinti meydanına çevirən Hacıbala müəllim isə yalnız onun günbəgün gözəlləşməsi ilə bağlı pafoslu və poetik çıxışları ilə yadda qalırdı. Çoxillik ağaclar, kollar bir gecədə, bir göz qırpımında məhv edilir, əvəzində isə xaricdən baha qiymətə alınan dekorativ ağaclarla saxta gözəllik yaradılmağa çalışılırdı. Nəticə göz kifayət qədər iş görmək mümkün idi. Yetər ki, sözügedən vəsaitin müəyyən bir qismi kimlər üçünsə asan qazanc mənbəyinə çevrilməsin.

Gəlin xatırlayaq: Hesablama Palatası Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) Yaşıllaşdırma Təsərrüfatı Birliyinə dövlət büdcəsindən ayrılmış vəsaitlərin icra vəziyyətini yoxlamış, ortaya xeyli nöqsan çıxarmışdı. Məlum olmuşdu ki, Bakı şəhərinin yaşıllıqlarına xidmət göstərilməsi məqsədilə ayrılan pulların mühüm bir qismi kimlərinsə tamahına qurban gedibg Məsələn, Birlik qanunvericiliyin tələblərinə riayət etməyərək, balansında olan yaşıllıq sahəsinin, habelə həmin sahədə ağac və kolların, çəmənlik və gül sahəsinin, çoxillik əkmələrin inventarizasiyası aparılmamış, alınması rəsmiləşdirilmiş əkin materiallarının, o cümlədən ağac və kolların, hazır çimin, gül şitillərinin yaşıllıq sahələrində əkilməsi sahə üzrə (rayon üzrə) aktla sənədləşdirsə də, ünvan və say barədə məlumatlar əks olunmayıb və s. və i.a.

Yalnız bir audit nətcəsində ortaya çıxan bu qədər nöqsanın arxasında Bakıda yaşıllıqların kəskin azalmasının başqa bir səbəbi dayanıb.

Bir sözlə, Hacıbala Abutalıbovun mer olduğu uzun illər ərzində paytaxtda yaşıllıqların, az qala, yoxa çıxması acı gerçəklikdir. Bu mənzərəni dəyişmək üçün isə ilk növbədə onun "miras" qoyub getdiyi zərərli vərdişlərə son qoyulmalıdır - ağaclar məmurların, iş adamlarının tamahından qorunmalı, yaşıllıqların artırılması və mühafizəsi üçün ayrılan pullar isə şəffaf, təyinatı üzrə xərclənməlidir.

***Toğrul Əliyev***



# Ermənilər Azərbaycana 16 milyarddan çox ekoloji ziyan vurub

***Ermənilər işğal dövründə Azərbaycana 16 200 059 474,80 manat ekoloji ziyan vurub.***

"Unikal" xəbər verir ki, bunu Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi, kiçik ədliyyə müşaviri İlqar Səfərov Ermənistanın silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən 1988-ci ildən bu günədək Azərbaycana qarşı törədilmiş cinayətlərə dair Baş Prokurorluq və Xarici İşlər Nazirliyinin birgə brifinqdə çıxışı zamanı deyib.

"Araşdırma zamanı müəyyən edilmişdir ki, uzun müddət işğal altında saxlanılmış ərazilərdə:

- Oxçuçay (üzlük daşı), Zəngilan (əhəng xammalı), Vejnəli (kvars-qızıl-sulfid), Şərifan (qum), Xaçınçay dərəsi( şirin su), Əkərəçay dərəsi (şirinsu) yataqları,
- Kəlbəcər rayonu üzrə Çaplı (qum çınqıl), Ağyataq (civə), Söyüdlü (zod-qızıl-sulfid), Qızılbulaq (qızıl-mis-kolçedan), Ağduzdağ (qızıl-nəcib metallar), Heydərə (qızıl) Qərbi Qızılitən və Ağzıbir (qızıl), Tərtərçay (qum-çınqıl), İlyaslı və Çaykənd (qarışıq süxur), Aşağı və Yuxarı İstisu (termal mineral su),
- Cəbrayıl rayonu üzrə Göyərçin Veysəlli (sement xammalı), Soltanlı (qum), Qaracalı (qum), Tuluz (mişar daşı), Hacılı 1 (gəc), Şarakənçəy dərəsi, İnçəçay dərəsi, Cəbrayılçay dərəsi, Çaylaqçay dərəsi, Qozluçay dərəsi, Çaxmaqçay dərəsi (şirin su yataqları),
- Tərtər rayonu üzrə Dəmirli (mis-molibden),Çardaqlı (daş kömür), Suqovuşan-Talış (qarışıq süxur), Qarabağ düzü (şirin su),
- Ağdam rayonu üzrə Abdal-Gülablı (üzlük daş), Şahbulaq, Çobandağ, Boyəhmədli (sement xammal), Qarqarçay 1(qum -çınqıl), Şelli (üzlük daş), Qarqarçay dərəsi (şirin su),
- Şuşa rayonu üzrə Şuşa 1 (əhəng xammalı), Qarqarçay sahəsi, Xankəndiçay sahəsi (şirin su), Turşu (mineral su),
- Füzuli rayonu üzrə Dövlətyarlı (mişar daşı) Quruçay (qum-çınqıl), Mil yatağı (şirin su),
- Xocavənd rayonu üzrə Binə, Hadrut, Tuğ, Məlikcanlı, Edillli (qarışıq süxur və qırmadaş),
- Laçın rayonu üzrə Yuxarı Həkəriçay (qum-çınqıl), Laçın-Şuşa avtomobil yolu (qarışıq süxur), Minkənd (mineral su) olmaqla

təbiət obyektləri (meşə fondu, meşə fonduna aid olmayan bitkilər, xüsusi mühafizə olunan təbiət əraziləri, təbiət abidələri və mineral-xammal yataqları) Ermənistan Respublikası və onun vəzifəli şəxsləri tərəfindən qanunsuz istismar olunmuş, ilkin araşdırma nəticədə maddi ziyanın təqribən 16 200 059 474,80 manat olması müəyyən edilib", - o vurğulayıb.

## Şəhid Səbuhi Əhmədovun qardaşına 11 min manat birdəfəlik ödəmə verildi



***Şəhid Səbuhi Əhmədovun vərəsəsi kimi qardaşı Sənan Əhmədova 11 000 manat məbləğində birdəfəlik ödəmə təyin olunub.***

Bu barədə Dövlət Sosial Müdafiə Fondunun (DSMF) İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Rəşad Mehdili bildirib.

R.Mehdili qeyd edib ki, vətəndaş aidiyyəti qurumdan varis olduğunu təsdiq edən sənədləri 4 oktyabrda təqdim etdikdən dərhal sonra elə həmin gün Sənan Əhmədova birdəfəlik ödəmə təyin olunub:

"Vətəndaşın müvafiq bank hesabına artıq ödəniş həyata keçirilib. Bu barədə ona məlumat verilib. 5 oktyabr tarixindən o, banka yaxınlaşaraq kartını əldə edib, birdəfəlik ödənişini ala bilər".

Qeyd edək ki, iki yaşında valideynlərini itirən Səbuhi Əhmədov qardaşı Sənan Əhmədovla birlikdə SOS uşaq evində böyüyüb.

12-14 sentyabr 2022-ci ildə Ermənistan tərəfinin təxribatı nəticəsində şəhid olmuş hərbçi Səbuhi Əhmədov İkinci Fəxri xiyabanda dəfn olunub. 24 yaşlı şəhidin dəfn mərasimində böyük izdiham yaşanıb.

## Qoca Səmədov müalicə müəssisəsinə köçürüldü

***Yevlaxın həbsdə olan sabiq icra başçısı Qoca Səmədov müalicə müəssisəsinə yerləşdirilib.***

"Unikal" xəbər verir ki, bu barədə APA-ya onun vəkili Elnur Vəliyev məlumat verib.

Vəkil bildirib ki, ötən gün cəzaçəkmə müəssisəsində səhhəti pisləşən müvəkkili həkimlərin tövsiyəsi ilə Pentensiar Xidmətin müalicə müəssisəsinə köçürülüb, hazırda həkim nəzarəti altındadır.

Qeyd edək ki, sabiq icra başçısı məhkəmə istintaqı dövründə ürəyindən iki dəfə əməliyyat olunub. Ötən gün isə həkimləri müayinəsindən sonra ürəyində yeni çat əmələ gəldiyi bildirilib.

Xatırladaq ki, Yevlax Rayon İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən həbs olunub.

Vəzifə cinayətləri ilə bağlı ittiham olunan sabiq icra başçısına son olaraq 5 il 9 ay azadlıqdan məhrumetmə cəzası təyin olunub. Hazırda onun çəkilməmiş 2 il cəza müddəti qalıb.

## Qarabağa qanunsuz səfər etmiş 19 nəfər axtarışa verilib

***"Ermənilərin işğal dövründə qanunsuz iqtisadi fəaliyyətlə bağlı Qarabağ ərazisinə səfər etmiş 19 nəfər axtarışa verilib".***

"Unikal" xəbər verir ki, bunu Baş prokurorun xüsusi tapşırıqlar üzrə böyük köməkçisi, kiçik ədliyyə müşaviri İlqar Səfərov deyib.

"Qanunsuz iqtisadi fəaliyyət, Azərbaycanın dövlət sərhədini qanunsuz olaraq keçməklə işğal altında olmuş Qarabağ ərazisinə səfər etmiş şəxslər, həmin ərazilərdə qanunsuz olaraq odlu silah əldə edib saxlama, gəzdirmə, qanunsuz arxeoloji tədqiqatlar aparma və sair cinayət faktları üzrə 19 nəfər barəsində axtarış elan olunub. 166 hüquqi şəxslə bağlı 35 dövlətə hüquqi tapşırıqlar göndərilib, hazırki vaxtadək onlardan yalnız 5-i icra edilib, 30-u isə icra edilməyib", - deyə İ.Səfərov vurğulayıb.

# Duru yağların kəskin bahalaşması ilə bağlı BÖYÜK ŞÜBHƏ...

***Bu məhsulun qiymətindəki aybaay yüksək artım, doğrudanmı, yalnız Rusiya-Ukrayna müharibəsi ilə bağlıdır?***

Duru yağların qiymətində kəskin bahalaşma var. Bir satıcı "Xəzər Xəbər"ə deyib ki, qiymət artımı əvvəllər daha az hiss olunurdu və qiymət fərqi 6 aydan bir yaranırdı.

Son iki ayda isə qiymətlərdə 2, hətta 3 dəfə artım müşahidə olunur. Bu da alıcı sayına təsir edir. Satıcılar deyirlər ki, həftədə bir dəfə mağazaya duru yağ məhsulu qəbul olunur və hər dəfə də qiymət 1 manata yaxın qalxır.

Satıcılar və alıcılar kəskin qiymət artımlarını Rusiya-Ukrayna müharibəsi ilə əlaqələndirirlər.




Lakin əksini düşünənlər də var. Bir çoxları sözügedən məhsulların bahalaşmasını müəyyən işbazların, inhisarçıların oyunu olaraq da qiymətləndirir. Məsələ burasındadır ki, duru yağların qiymətində göz-görəti artım hələ ötən ildən başlamışdı. Məsələn, ötən ilin avqustunda ölkənin iqtisadi xəbər saytları "Azərbaycanda duru yağlar aybaay bahalaşır" başlıqlı məlumatlar yaymışdılar. Həmin məlumatlarda vurğulanırdı ki, ölkəmizdə adıçəkilən məhsulun qiymətlərində hər ayda artım artıq rutinə çevrilib.

Sitat: "Bahalaşma həm yerli, həm də xaricdə istehsal edilmiş məhsullarda müşahidə edilməkdədir.

Qarğıdalı yağı. Yerli istehsal qarğıdalı yağının 1 litrliyinin qiyməti 5.37 manata qədər bahalaşıb. Bu da son ayda 3 qəpik, yaxud 0.51% bahalaşması deməkdir. Xaricdən gətirilən qarğıdalı yağının hər litri isə yerli bazarda orta ölçüdə 5.77 manata satılır. Bu da iyul ayında 0.77% bahalaşma deməkdir.

Günəbaxan yağı. Günəbaxan yağında bahalaşma daha qabarıqdır. Məsələn, 2021-ci ilin iyulun əvvəli 3.98 manat/litrə satılan yerli istehsal olan günəbaxan yağı, avqustun əvvəlinə 4.08 manat/litrə qalxıb. Bu da 2.64% aylıq artım dinamikasıdır. Xarici istehsal olan günəbaxan yağı yerli bazarda 4.35 manata qalxıb. Aylıq 1.48% artım deməkdir.

Zeytun yağı. Ölkədə yerli istehsal olan zeytun yağının qiyməti son ayda 0.4% bahalaşmaqla 11.44 manat/litr olmuşdur. Xaricdən gətirlənlərin qiyməti isə cüzi artımla 15.28 manat/litr olub. Azərbaycanda duru yağların qiymətlərində hər ayda artım artıq rutinə çevrilib".

Bu xəbərin yayıldığı vaxt Rusiya-Ukrayna savaşının başlanmasına hələ 7 ay var idi. Elə indi isə hazırkı bahalaşmanı sözügedən müharibə ilə əlaqələndirmək nə qədər məntiqlidir? Üstəlik, yuxarıdakı xəbərdə yer alan qiymətlərə ilsonu, yəni ruslar işğal əməliyyatına start vermədən iki ay öncəki qiymətlər arasında da xeyli fərq vardı. Yəni, duru yağlar bir qədər də bahalaşmışdı. Hazırda isə 2021-ci ilin payızı ilə müqayisədə fərq 1,5 - 2 dəfəyə yaxındır.

Bir sözlə, duru yağların son ilyarımda anormal həddə bahalaşmasını yalnız Rusiya-Ukrayna savaşı ilə əlaqələndirmək heç bir halda məntiqli görünmür və işbazlardan, monopolistlərdən şübhələnənlərə xeyli dərəcədə haqq qazandırır.

Əlbəttə, ölkəmiz duru yağ tələbatının böyük hissəsini idxal hesabına ödədiyindən dünyada baş verən proseslərin qiymətlərə təsirini obyektiv qiymətləndirmək lazımdır. Lakin bahalaşmanın sürəti və miqyası bir çox məqamlarda haqlı suallara da yol açır. Xüsusilə də yerli duru yağların bəzən idxal olunan duru yağlarla müqayisədə daha çox bahalaşmasını anlamaq elə də asan deyil. Təsəvvür edin, təkcə sentyabrda supermarketlərdə satılan 1 litrlik "Final" qarğıdalı yağının qiyməti 6.37 manatdan 7.77 manata qalxıb. Bu təkcə ötən ay ərzində 22 faiz bahalaşma deməkdir. Yaxud, süşə qablaşmada olan "Zeytun Bağları" zeytun yağının bir litri 11.19 manatdan 12.29 manata qədər bahalaşıb. Bu isə yalnız sentyabrda 10% bahalaşma mənasına gəlir. Kərə ləzzətli "Möcüzə" yağının 2 litrinin qiyməti isə ötən ay 14.49 manatdan nə az, nə çox, düz 16.90 manata qədər bahalaşıb.

Açıq danışaq - cəmi bir ay içində hətta yerli duru yağların qiymətindəki bu qədər artım, doğrudanmı, normaldır?! Həqiqətənmi, işin içində işbazların, inhisarçıların heç bir barmağı yoxdur?!

Fikrimizcə, əhalini getdikcə daha çox narahat etməyə başlayan bu məqamlarla bağlı aidiyyati qurumlar dərindən düşünməli və cəmiyyəti obyektiv şəkildə məlumatlandırmalıdır. Məlumatlandırmalıdır ki, ortaya çıxan şübhələr aydınlığa qovuşsun, kimlərinsə böhran situasiyalarını öz şəxsi biznes maraqları üçün fürsətə çevirmək cəhdləri, heç olmasa, bir qədər azalsın...

***Gülayə Mecid***

**6.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənilərin insanlıq əleyhinə törətdiyi Gəncə terrorundan iki il ötür

## Terror qurbanı Pərvin Qasımova hələ də gözlərinin açılacağı günü ümidlə gözləyir




***Oktyabr ayı gələndə Azərbaycanda 2020-ci ilin bu ayında Gəncədə törədilən erməni terroru yada düşür. Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər sırasında Gəncə terroru xüsusi yer tutur.***

Ermənistan cəbhədəki uğursuzluğunu pərdələmək üçün Azərbaycanın böyük şəhərlərində terror hadisələri törətməsi mülki əhaliyə qarşı yönəlmiş cinayətdir. Ermənistanın təsəlli məqsədilə silahını Azərbaycanın mülki əhalisinə çevirməsi, Mingəçevir və Gəncəyə raket atılması mənfur düşmənimizin əsl simasını bir daha dünyaya göstərdi.

Qeyd edək ki, Gəncəyə ilk raket atəşi oktyabrın 4-də açılıb. Nəticədə 3 mülki şəxs həyatını itirdi, bir sıra yaşayış məskənləri dağıdıldı. Oktyabrın 10-da Moskvada humanitar atəşkəs imzalansa da, düşmən oktyabrın 10-dan 11-ə keçən gecə növbəti dəfə Gəncədə mülki insanların yaşadığı əraziləri raket atəşinə tutdu və 3 yaşayış binası tamamilə məhv oldu. Həmin binada bir çox insanın həyatı, arzuları və ümidləri puç oldu. Oktyabrın 17-də Gəncə şəhəri yenə düşmənin hədəfinə çevrildi. Atılan raket mərmisi nəticəsində 15 nəfər həyatını itirdi, 50-dən çox insan isə yaralandı. Erməni silahlı qüvvələri cəbhədə üzləşdiyi uğursuzluğun qisasını dinc əhalidən alması düşmənin naqis xislətindən xəbər verdi.

Gəncədə baş verən terror qurbanlarından biri də Ermənistanın Gəncəyə atdığı raket hücumu nəticəsində iki gözünü itirmiş Pərvin Qasımovadır. Gəncə terrorundan sonra Qasımovlar ailəsi Gəncəyə qayıtmağın Pərvin üçün çox çətin olduğunu söyləyir. Ailənin tək övladı olan Pərvin bu gün də anası ilə birgə Bakıda yaşayır. Hər il çətin də olsa o günlərə geri dönən Pərvin Qasımova oktyabr ayı gələndə qəribə əhval-ruhiyyədə olduğunu söyləyir. Düşmənin atdığı raketlə arzuları yarımçıq qalan P. Qasımova gözünə yenidən nur gələcəyi günü gözləyir. P. Qasımova deyir ki, terror hadisəsi baş verən gün anasıgildə olub. Atasının doğum gününü təbrik etməyə gələn Pərvin oktyabrın 4-də getməyə hazırlaşırmış: "Çörək almağa getmişdim. Böyük qızım məndən bulka istəmişdi. Bulka gec hazır olacağından evə gəldim. Kaş ki, orada gözləyəydim. Səhər yeməyini yeməmişdik. Axşama evə getməli olduğumuzdan uşaqların paltarlarını yığışdırmaq üçün yataq otağına keçdim. Anam da mənə kömək üçün həmin otağa gəldi. Uşaqlar, anam, hamımız bir otaqda idik. Mən paltarları yığışdırarkən səs eşitdim. Səsin haradan gəldiyini eşitmək üçün pəncərəyə yaxınlaşdım. Bu zaman qorxunc gurultu səsindən sonra güclü zərbədən yıxıldım. Ondan sonra nə baş verdiyini xatırlamıram".

Pərvin ayılanda qollarının üstünə çarpayının düşdüyünü, ətrafın zülmətə büründüyünü görür: "Elə bildim ki, pis bir yuxu görürəm. Başıma gələnlərin reallığ olduğunu ağlıma sığdıra bilmirdim. Anam ətrafdan kömək istədiyini eşidəndə yavaş-yavaş özümə gəldim.

P. Qasımova hadisə zamanı anasının da gözünə şüşə qırıntılarının düşdüyünü, ayaqlarının zədə aldığını söyləyir: "Şükür edirəm ki, qızlarım xəsarət almadı. Mənim əlimin vətəri kəsildi, iki barmağımı çətinliklə idarə edirəm. Bədənimdə qəlpə qalıb, çənəmdə sınıq var. Burnumda qırıqlar var, dişlərimin bir çoxu qırılıb. Alnımdakı yaraları əməliyyat nəticəsində aradan qaldırıblar. Ən böyük zərəri isə gözlərimdən almışam və iki gözümü itirmişəm. Sağ gözümün bərpa olunmasına bir az ümid var, amma bunu zaman göstərəcək".

Gəncə terroru Pərvini təkcə dünya işığına həsrət qoymayıb. O ailəsindən də ayrı düşüb. Pərvin gözlərini itirdikdən sonra özü könüllü həyat yoldaşından ayrılıb. Hazırda kiçik qızı anasının, böyük isə atasının yanında qalır.

Övladlarını iki il öncə görən P. Qasımova gözlərinin açılmasını da ən çox övladlarını görmək üçün istəyir.

Bir sözlə, Gəncə terroru öz qəddarlığı və amansızlığı ilə bir daha ermənilərin insanlığa qarşı ən böyük təhlükə olduğunu bütün dünyaya nümayiş etdirdi. Düşmən məhz Xocalı soyqırımında olduğu kimi, yenə də günahsız insanları hədəf aldı. Onu da vurğulayaq ki, 44 günlük savaş zamanı Ermənistanın Azərbaycanın mülkü şəxslərini qətlə yetirməsi bir sıra beynəlxalq təşkilatların da bəyanatlarında öz əksini tapıb. Beynəlxalq "Human Rights Watch" təşkilatı Ermənistan hərbi qüvvələri tərəfindən Azərbaycanın Ağdam, Bərdə, Füzuli, Gəncə, Goranboy, Naftalan və Tərtər rayonlarının şəhər və kəndlərinin raket və ağır artilleriya hücumlarına məruz qalma faktını araşdırıb. Bu məruzə 40 mülki vətəndaşın öldürülməsi və bir çoxunun yaralanması ilə nəticələnən 18 hücumu hərtərəfli öyrənərək 53 hadisə şahidi ilə aparılan müsahibə, 12 telefon müsahibəsi, media xəbərləri, o cümlədən hökumətin elan etdiyi məlumatlardan əldə olunmuş informasiyalar əsasında hazırlanıb. Eyni zamanda "Human Rights Watch" 17 hücumdan 10-nun peyk görüntülərini, 9-nun sosial mediada paylaşılan foto və videolarını araşdırıb. Hücumların saat və tarixi, səbəb olduğu dağıntı miqyası müəyyənləşdirilib.

Ermənistan hərbi qüvvələrinin zərbələri mülki itkilərə səbəb olmaqla yanaşı, həmçinin evlərə, müəssisə və məktəblərə, habelə bir xəstəxanaya ziyan vurub, əhalinin kütləvi köçürülməsinə səbəb olub.

Rəsmi Bakının açıqlamalarında qeyd olunur ki, Vətən müharibəsinin gedişində ermənilərin terror aktları və silahlı hücumları nəticəsində 98 mülki azərbaycanlı öldürülüb, 414 nəfər yaralanıb, 3000-dən çox ev və 100 yaşayış binası dağıdılıb və ya zərər görüb.

Beynəlxalq hüquqa, müharibə qanunlarına görə, hücuma hazırlaşan tərəf şəraitin imkan verməyəcəyi halda mülki əhaliyə təsir edə biləcək hücumları haqda əhaliyə xəbərdarlıq etməlidir. Ermənilər bu müddəanı da pozublar.

Ermənistanın müharibə cinayətləri Gəncəyə raket atmaqla bitmədi. Ermənistan 2020-ci il 28 oktyabr tarixində Bərdəni raket atəşinə tutdu, 21 mülki vətəndaş həlak oldu, 70 nəfər yaralandı. Ermənistan Azərbaycanın dinc sakinlərini hədəfə alarkən, kasetli bombalardan da istifadə edib. Beynəlxalq müşahidəçilər bu faktları da sənədləşdiriblər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# "YAŞAT"a toplanan vəsait 75 milyon manatı ötdü

***Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu olan "YAŞAT" Fonduna toplanan vəsait 75 milyon manatı keçib.***

"Unikal" xəbər verir ki, Fonda toplanan vəsait 75 005 895.92 manatdır. Həmin vəsaitdən 23 679 620.27 manatı fiziki şəxslər, 51 326 275.65 manatı isə hüquqi şəxslər tərəfindən ödənilib.

Fonda daxil olan vəsaitin 67 048 741.04 manatı xərclənib. Vəsaitin qalığı isə 7 957 154.88 manatdır.

***Anar Kəlbiyev***

# "İçərişəhərdəki evimin sənədini 3 ildir ki, ala bilmirəm"

***Vətəndaş Hüseynova Sevda Gəray qızı yaşadığı evin mülkiyyət hüququnu təsdiq edən sənədi almaqda çətinliklə üzləşib.***



Bu barədə "Unikal"a müraciət edən S. Hüseynova bildirib ki, o Bakı şəhəri, Müslüm Maqomayev küçəsi ev 89 ünvanında yerləşən 2 mərtəbəli fərdi yaşayış evində qalır:

"Artıq 3 ildir ki, evin mülkiyyət hüququnu təsdiq edən sənədi İçərişəhər Dövlət Tarixi-Memarlıq Qoruğu İdarəsindən ala bilmirəm. Məsələ ilə bağlı 2019-cu ildə məhkəmə prosesi baş tutub. Lakin Qoruq İdarəsi məhkəmənin sorğusuna cavab olaraq idarədə sözügedən ünvanla bağlı məlumatın olmamasına dair məhkəməyə cavab təqdim edib.

Buna baxmayaraq, 2020-ci ilin yanvar ayının 24-də İdarənin Orxan adlı əməkdaşı sözügedən ünvana məxsus olan sənədi bizə rəsmi görüş zamanı nümayiş etdirib. Bundan sonra ərizə yazaraq həmin sənədin surətini əldə edə biləcəyimi dedilər. Lakin İdarənin 5 fevral 2020-ci il tarixli cavab məktubunda həmin sənədin konfendensial olduğu və mənə məxsus olmaması haqqında cavab məktubu təqdim edilib.

Daha sonra Həqiqətin aydınlaşdırılması məqsədilə Mülkün kimin adına olması haqqında idarəyə əlavə sorğularla müraciət olunub. Lakin idarə bu dəfə də sorğuya düzgün cavab təqdim etməkdən yayınıb. Belə ki, sözügedən qurum mülkün kimin adına olması haqqında yox, həmin mülkün pasportunun hansı mühəndis tərəfindən tərtib olunması haqqında təkrar cavab məktubları təqdim edib", - deyə o qeyd edib.

***Seymur Əli***

# Balakəndə narkotiklərlə əlaqəli 6 nəfər saxlanıldı



***Balakən Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyatlar zamanı rayon ərazisində narkotiklərin satışını, paylanmasını təşkil edən və narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olan 6 nəfər tutularaq istintaqa təhvil verilib. Onlardan ümumilikdə 5 kiloqrama yaxın narkotik vasitə aşkarlanaraq qanunsuz dövriyyədən çıxarılıb.***

DİN-in Mətbuat Xidmətinin Şəki regional qrupundan "Unikal"a verilən məlumata görə, daxil olmuş əməliyyat məlumatı əsasında keçirilən tədbir nəticəsində Gərəkli kənd sakini, əvvəllər də məhkum olunmuş Fərhad Qarayev saxlanılıb.

Onun üzərinə və yaşadığı ünvana baxış zamanı ümumi çəkisi 4 kiloqram olan qurudulmuş marixuana, eləcə də çətənə bitkilərinin hissələri aşkar olunaraq götürülüb.

Saxlanılan şəxs ifadəsində narkotik vasitəni iyul ayında becərdiyi çətənə kollarından yığaraq əldə etdiyini və heç kimin görməməsi üçün evin çardağında gizlətdiyini bildirib.

Şöbənin Cinayət Axtarış Bölməsinin və Narkotiklərlə Mübarizə Qrupunun əməkdaşlarının keçirdikləri digər əməliyyatlar nəticəsində daha 4 nəfər rayon sakini - Rahib Hüseynov, Yaqub Qarayev, Röyal Mirəliyev və Elçin Balagözov tutulub. Araşdırmalar zamanı saxlanılanlardan bəzilərinin əvvəllər də eyni əmələ görə məhkum olunduqları müəyyən edilib.

Həmin şəxslərin üzərindən və yaşadıqları ünvanlardan müxtəlif növ narkotik vasitələr aşkarlanaraq istintaqa təqdim olunub.

Faktlarla bağlı cinayət işləri başlanılıb, istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# İtkin hərbçilərə şəhid statusu nə vaxt verilir? - Açıqlama

***44 günlük Vətən müharibəsində itkin düşən 6 Azərbaycan hərbçisinin taleyi ilə bağlı hələ də məlumat yoxdur. Müharibənin bitməsindən 2 ilə yaxın vaxt keçməsinə baxmayaraq, hərbçilərin axtarışı nəticə verməyib və onlar itkin düşmüş şəxs kimi qeydiyyata alınıblar.***

Bəs hərbçilərimizin taleyi məlum olmadığı halda, onlara hansı müddətdə şəhid statusu verilməlidir?

Bununla bağlı Modern.az-a danışan Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, 6 hərbçiyə şəhid statusunun verilməsi məhkəmə qaydasında tədsiqlənməlidir: "Məhkəmə qaydasında onların itkin olmağı barədə qərar çıxarılandan sonra şəhid statusunun verilməsi rəsmiləşdirilir. Bununla bağlı müəyyən edilən vaxt müddəti adətən 6 aydır. Bu müddət ərzində hərbçinin sağ və ya vəfat etmiş olması haqqında məlumat yoxdursa, Müdafiə Nazirliyi müraciət etməli, məhkəmə isə müvafiq prosedura uyğun qərar verməlidir".

Musa Quliyev azad edilmiş ərazilərdə kütləvi məzarlıqların, insan qalıqlarının tapılmasından da danışıb. Komitə sədri vurğulayıb ki, azad edilmiş ərazilərdə tapılan insan qalıqları arasında itkin hesab edilən hərbçilərimizə aid nümunələr də ola bilər: "Əgər onların hansısa şəkildə qalıqları tapılarsa, yenə də şəhid statusunun verilməsinə maneə deyil. Məhkəmə qaydası ilə öldüyü təsdiq olunan itkin hərbçilər şəhid sayılacaq. Amma arzu edək ki, onların sağ olduğu haqqında xəbərlər gəlsin".

Qeyd edək ki, rəsmi məlumata görə, 2020-ci ilin 27 sentyabr-10 noyabr tarixlərində davam etmiş Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin 6 hərbi qulluqçusu itkin düşmüş hesab olunur.

Əsir və itkin düşmüş, gorov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına görə, itkin düşən 6 hərbçidən 4-ü əsgər, 1-i MAXE, 1-i zabitdir.

"İtkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir", - deyə Dövlət Komissiyasının məlumatında deyilir.

İtkin hesab olunan hərbi qulluqçular 2001-ci il təvəllüdlü MAXE Mehdiyev Asim Yaqub oğlu, 1998-ci il təvəllüdlü leytenant Vəlizadə İbrahim Səməd oğlu, 1997-ci il təvəllüdlü əsgər Qədirli Elnur Rəcəb oğlu, 1996-cı il təvəllüdlü əsgər Salamov Qorxmaz Bayram oğlu, 1995-ci il təvəllüdlü əsgər Feyzullayev Aydın Zakir oğlu, 1991-ci il təvəllüdlü əsgər Səfərli Xəqani İlqar oğludur.

Xatırladaq ki, 2020-ci ilin Vətən müharibəsində Azərbaycanın 2908 hərbi qulluqçusu şəhid olub.

# Dərmanlara nəzarət ciddiləşib

***Nazirliyin şöbə müdiri deyir ki, hər bir dərman vasitəsi qeydiyyata alınmazdan öncə klinikaya qədər və klinik tədqiqatlardan keçirilir***

Mərkəzin Farmakonəzarət şöbəsi tərəfindən ilk olaraq dərman vasitələrinin təhlükəsiz istifadəsinin təmin edilməsi məqsədilə əlavə təsirləri və fayda-risk nisbətləri sistemli bir şəkildə izlənilir. Bunu Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinin müdiri Fərid Həsənov bildirib.

F.Həsənov qeyd edib ki, bunun üçün lazımi məlumat toplanılır, qeydiyyata alınır, qiymətləndirilir, arxivləşdirilir: "Daha sonra dərmanların səbəb ola biləcəyi zərərlərin minimallaşdırılması üçün zəruri tədbirlər görülür. Farmakonəzarət anlayışından da göründüyü kimi, dərman vasitələrinin əlavə təsirlərinin və dərman vasitələrinin istifadəsi zamanı yaranan digər arzuolunmaz nəticələrin aşkarlanması, qiymətləndirilməsi və qarşısının alınması istiqamətində həyata keçirilən elmi fəaliyyətdir.

Dərman vasitəsinin əlavə təsirləri dedikdə onların istifadə təlimatında (içlik vərəqədə) göstərilmiş dozada istifadə edilməsi zamanı insan orqanizminin gözlənilməz mənfi reaksiyası nəzərdə tutulur. İçlik vərəqəsi hər bir dərman vasitəsinin qutusunun içində olur və həmin vərəqədə "Əlavə təsirlər" bölməsində əlavə təsirləri qeyd olunur. Əlavə təsirlərə misal olaraq, ürəkbulanma, baş ağrısı, qusma və s. göstərmək olar".

"Dərmanların qeydiyyatı bir neçə mərhələdə baş verir. Hər bir dərman vasitəsi qeydiyyata alınmazdan öncə klinikaya qədər (heyvanlar üzərində aparılan tədqiqatlar) və klinik (insanlar üzərində aparılan tədqiqatlar) tədqiqatlardan keçirilir. Klinik tədqiqatlar dərman preparatlarının inkişafının ayrılmaz mərhələsidir. Klinik sınaqlar zamanı onların effektivliyi və təhlükəsizliyi haqqında məlumat əldə etmək üçün geniş araşdırmalar aparılır. Bundan əlavə, yeni dərmanın fayda və risk nisbəti, toksiklik xüsusiyyətləri öyrənilir. Bu məlumatlara əsasən, dərmanı qeydiyyata almaq və ya qeydiyyatından imtina etmək barədə qərar qəbul edilir", - şöbə müdiri qeyd edib.

Cari ilin yanvar ayının 1-dən avqustun 31-ə qədər Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinə dərmanların əlavə təsirləri haqqında 115 bildiriş daxil olub. Bunu da Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin Farmakonəzarət şöbəsinin müdiri Fərid Həsənov bildirib. F.Həsənov qeyd edib ki, göndərilən bildirişlərin 46-sı tibb işçiləri, 68-si əczaçılıq şirkətləri və 1-i pasiyentin payına düşür: "Təqdim olunan məlumatlar ümumi olaraq qiymətləndirilir. Qiymətləndirmə nəticəsində müxtəlif tədbirlər görülür - tibb işçiləri və pasiyentlər üçün dərman vasitəsi haqqında yeni təhlükəsizlik məlumatları hazırlanır, dərman vasitəsinin istifadəsi üzrə təlimatında (içlik vərəqəsində) dəyişiklik edilir, təyinatı məhdudlaşdırılır, dərman vasitəsi geri çağırılır və s. Bu məlumatlar vaxtlı-vaxtında Analitik Ekspertiza Mərkəzinin rəsmi internet səhifəsində dərc olunur".



Aptekdən əldə olunmuş dərman vasitəsinin təsirli olmaması (effektivsizliyi) haqqında bildiriş varsa, bunun üçün vətəndaş dərman vasitəsini (qablaşdırması ilə birlikdə) və dərman vasitəsini aptekdən əldə etdiyinə dair qəbz ilə birlikdə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin "Bir pəncərə" sektoruna ərizə ilə müraciət edə bilər. F.Həsənov qeyd edib ki, oradan yönləndirilən müraciətlər Mərkəzin əlaqədar şöbələri tərəfindən qiymətləndirilir:"Dərman vasitəsinin effektiv olmaması kimi hallar ilə bağlı əlavə təsirlər haqqında bildiriş edərkən, bir dərman vasitəsinin eyni seriyası ilə bağlı müraciətlərin sayında artım müşahidə olunduğu təqdirdə qurum tərəfindən araşdırma başladılması mümkündür.Qeyd edim ki, təqdim etdiyiniz şəxsi məlumatların konfidensiallığı "Dərman vasitələrinin farmakonəzarət Qaydası"nın 19.2-ci bəndinin tələblərinə əsasən qurum tərəfindən təmin olunur. Əlavə təsirləri müəyyən etmək və dərman vasitəsinin istifadəsini mümkün olduğu qədər təhlükəsiz etmək məqsədilə təqdim edilən məlumatlar Mərkəz tərəfindən ciddi araşdırılır".

"Vətəndaşlar Analitik Ekspertiza Mərkəzinin rəsmi internet səhifəsində (www.pharma.az) dərmanlar - dərmanın adı hissəsindən müvafiq dərman vasitəsini axtarışa verərək onun istifadə təlimatını (içlik vərəqəni) yükləyib, həmin içlik vərəqədə həmçinin əlavə təsirlər ilə tanış ola bilərlər", - qurum rəsmisi əlavə edib.

# Rayonlarda beton kanal və bəndlər çəkilir

***Zaqatalada yeni beton kanal çəkilir. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Zaqatala rayonunda əkin sahələrinin suvarılmasını təmin etmək, o cümlədən sel sularına qarşı mübarizəni gücləndirmək məqsədilə təxirəsalınmaz işlər görülür.***

Suvarılan torpaq sahələrinə vaxtında suyu çatdırmaq üçün torpaq məcralı kanallar lildən təmizlənir, su itkisinin qarşısını almaq üçün isə kanallara beton üzlük çəkilir. Bütün bu işlər Zaqatala Suvarma Sistemləri İdarəsi tərəfindən həyata keçirilir. Cari ildə suvarma kanallarının 425 min m3 hissəsinin lildən təmizlənməsi nəzərdə tutulub. Qobu çay suvarma kanalının davamı olaraq 2,3 km torpaq məcralı Qandax kanalının 1 km uzunluğunda beton üzlüklə əvəzlənməsi və üzərindəki qurğularla birlikdə təmir edilməsi planlaşdırılıb. Hazırda kanalda işlər sürətlə davam edir.



Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2022 - ci il üçün təsdiqlənmiş istismar tədbirləri plana uyğun olaraq Zaqatala Suvarma Sistemləri İdarəsi cari il ərzində rayon ərazisindən axan mövcud çaylarda selə qarşı mübarizə tədbirləri ilə əlaqədar, çay yatağının təmizlənməsi və sahilbərkitmə işlərinin görülməsini də həyata keçirir. Muxax çay sistemi üzrə 304 min, Tala çay üzrə 188 min, Katex çay üzrə 15 min, Bəkməz çay üzrə 17 min, Micqar çay üzrə 14 min kub metr olmaqla cəmi çaylarda 538 min kub metr məcra təmizləmə işləri yerinə yetirilib. Suvarmanın təşkilində əhəmiyyətli yerə malik olan suvarma kanallarında isə 290 min kub metr iş görülüb.

Qeyd edək ki, Zaqatala Suvarma Sistemləri İdarəsi balansında olan 15560 hektardan artıq əkin sahəsinin suvarılmasına xidmət edir. Hər il bu sahələrdə müxtəlif növ kənd təsərrüfatı bitkiləri əkilir və suvarılması tam olaraq həyata keçirilir.

Xaçmazda 2 km uzunluğundakı torpaq kanal beton üzlüyə alınır. Dilqəm Şərifov bildirib ki, ölkəmizin ən böyük kənd təsərrüfatı rayonlarından olan Xaçmazda fermerlərin suvarma suyu ilə təminatı istiqamətində tədbirlər davam etdirilir. Məlumat üçün bildirək ki, rayon ərazisində suvarılan torpaqların ümumi sahəsi 50 min 290 hektardır. Bu torpaq sahələri kanallar, çaylar, qarasular və bir qisimi də artezian suları ilə suvarılır. Su mənbələri isə Samur-Abşeron və Xan arxı kanalıdır. Su istehlakçılarının keyfiyyətli suvarma suyu ilə təmin etmək məqsədi ilə iki min mert uzunluğunda torpaq kanal hazırda beton üzlüyə alınır.

Yeni beton kanalların çəkilməsi fermerlərin də işini xeyli asanlaşdırır. Bağ və sahələrin vaxtında suvarılması həm də məhsuldarlığın yüksəldilməsinə təsir edir. Bununla yanaşı rayon ərazisindən keçən çayların daha çox təhlükə gözlənilən hissələrində daşqın və selə qarşı mübarizə tədbirləri görülərək çay məcraları tənzimlənir, sahilqoruyucu və su istiqamətləndirici bəndlər qurulur.

Qeyd edək ki, Xaçmaz rayonunda sahələri suvarmaq üçün 2 min 180 kilometr uzunluğunda təsərrüfatdaxili və təsərrüfatlararası suvarma kanalından istifadə edilir. Bu kanalların 1790 kilometri torpaq 220 kilometri isə beton məcralıdır. Ötən il rayon ərazisində 3 min metrdən artıq torpaq məcralı kanal beton üzlüyə alınıb.

Qubada sel sularından mühafizəsi məqsədilə mühafizə bəndi tikilir. Dilqəm Şərifov bildirib ki, əkin və bağ sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması kənd təsərrüfatının inkişafını şərtləndirən əsas amillərdəndir. Odur ki, respublikamızın digər rayonları kimi Qubada da rayon Suvarma Sistemləri İdarəsi tərəfindən torpaqların su təminatı üçün ardıcıl tədbirlər görülür, suvarma şəbəkələri genişləndirilir, su sistemlərində təmir-bərpa işləri həyata keçirilir. Ölkəmizin ən iri meyvəçilik rayonlarından olan Qubada bol məhsul götürmək üçün suvarma suyuna böyük ehtiyac var. Uzun illər əkin sahələrini suvarmaq üçün təsərrüfat sahibləri torpaq arxlarla su aparmalı olurdular ki, bu da həm vaxt həm də su itkisinə səbəb olurdu. Artıq rayonda bu problem həll edilmək üzrədir. Belə ki, Quba rayon Suvarma Sistemləri İdarəsi tərəfindən köhnə su kanalları yenilənir. Hazırda bu məqsədlə torpaq kanalların beton üzlüyə alınması işləri görülür.

Su kanalların beton üzlüyə alınması ilə yanaşı rayonda yaşayış məntəqələrinin sel sularından mühafizəsi məqsədilə çayların kənarında mühafizə bəndlərinin inşası da davam etdirilir. Hazırda rayon suvarma sistemləri idarəsi tərəfindən Qusarçay çayının Çartəpə kəndi ərazisindən keçən hissəsində bəndvurma işləri görülür. Bu ərazidə çayın məcrası genişlənərək yaxınlıqdakı ərazilər üçün təhlükə yaradıb. Bənd tikildikdən sonra çayın ətrafındakı ərazilər daşqın və sel sularından tamamilə qorunacaq. Uzun illər sel təhlükəsindən əziyyət çəkən sakinlər də görülərn işləri yüksək qiymətləndirirlər. Onlar hesab edir ki, yeni bənd həm yaşayış evlərini həm də təsərrüfatları seldən tam şəkildə mühafizə edəcək.

Qeyd edək ki, hazırda Quba rayonunda ümümilikdə 26 min 33 hektar suvarılan ərazi mövcuddur. Görülən meliorativ tədbirlər nəticəsində həmçinin sahələri suvarma suyu ilə təmin edən torpaq kanallar mütamadi olaraq lil və kol-kosdan təmizlənir. Rayon Suvarma Sistemləri İdarəsindən verilən məlumata görə, təmir planına uyğun olaraq gələcəkdə mərhələli şəkildə bütün torpaq kanallar beton kanallarla əvəz ediləcək.

***Hüseyn İsdəndərov***



# İdmançı şəhidin qəhrəmanlığı

***Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan ordusunun Azərbaycanla dövlət sərhədində həyata keçirdiyi irimiqyaslı təxribat nəticəsində şücaət göstərib şəhidlik zirvəsinə ucalan qəhrəmanlardan biri XTQ giziri Xəyal Əlövsət oğlu Əhədzadədir.***

1998-ci ildə Lənkəranın Nərimanabad qəsəbəsində dünyaya göz açan bu Vətən sevdalısı yaxşı idmançı kimi də tanınırdı. Lənkəran Şəhər Gənclər və İdman İdarəsinin nəzdində Uşaq Gənclər İdman Məktəbinin yetirməsi olub, 2012-ci il Boks idman növü üzrə məktəblilərin Azərbaycan birinciliyində 40 kiloqram çəki dərəcəsində birinci yeri qazanaraq Respublika çempionu adına layiq görülmüşdü.

Xəyalın birinci amalı doğma Azərbaycana məxsus torpaqlarını canı bahasına belə qorumaq, mübarizliklə yağı düşmən qalib gəlmək olub. Odur ki, Vətən müharibəsində də erməni dığalarına qarşı döyüşlərdə əsl qəhrəman kimi ad qoymuşdur. O, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən "Azərbaycan bayrağı" ordeni , eləcə də Fizulinin, Cəbrayılın, Kəlbəcərin Şuşanın azadlığı uğrunda medalları ilə təltif edilmişdi.

Xəyal Əkbərzadə Vətənini canından artıq sevirdi. Hər an onun yolunda şəhid olmağa hazır indi. Nəhayət 24 yaşında bu istəyinə çatdı. Azərbaycan torpaqlarına göz dikən düşməni məhv etməklə özü də əbədiyyət qazandı. İndi Lənkəranın qəhrəman oğlu cismən aramızdan getsə də, mənən milyonların ürəyində yaşayır. Onun qısa ömrü Vətəninə, torpağına sonsuz sevgi, məhəbbət mücəssəməsinə döndü. Aylar, illər ötsə də Xəyal kimi qəhrəmanlar heç vaxt unudulmaz, onların adları Vətənlə qoşa çəkiləcək.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Bakıda top mərmisi tapıldı

***Bakıda top mərmisi tapılıb. Bu barədə "Unikal"a Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat Xidmətindən məlumat verilib.***

Bildirilib ki, FHN-in "112" qaynar telefon xəttinə paytaxtın Qaradağ rayonu ərazisində hərbi sursatın aşkar edilməsi barədə məlumat daxil olub.

Məlumatla əlaqədar dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin (XRXX) minalardan təmizləmə üzrə çevik qrupu hadisə yerinə cəlb edilib. Hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatın 1 ədəd döyüş tətbiqinə yararlı 85mm-lik top mərmisi olduğu müəyyən edilib.

Sursat XRXX-nin çevik qrupunun mütəxəssisləri tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb.

Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.



## PKK-nın Kobani üzrə məsul şəxsi zərərsizləşdirildi

***Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) Suriyanın şimalında Aynularap bölgəsində əməliyyat keçirib.***

Türkiyə KİV-ə istinadən xəbər verir ki, əməliyyat nəticəsində PKK/YPG terror təşkilatının Kobani əyaləti üzrə məsul şəxsi Həsən Demirtaş zərərsizləşdirilib.

## "Rusiya suverenliyimizi əlimizdən almaq istəyir" - Paşinyan

***"Bu gün keçiriləcək Paşinyan-Ərdoğan görüşü ilə bağlı xəbərlər, o cümlədən Nikol Paşinyanın ailəsinə məxsus mediada "etibarlı mənbə" ilə dərc olunan silsilə yazılar erməni cəmiyyətinə növbəti həyacan dozası aşılayıb. Ola bilsin ki, ermənilər Rusiya ilə vidalaşmaq istəyirlər".***

"Unikal" xəbər verir ki, bu barədə "Joqovurd" qəzeti yazıb. Nəşrin məlumatına görə, bu günlərdə Nikol Paşinyan komanda yoldaşları ilə söhbətində ruslarla bağlı tezislər təqdim edir: "Rusiya bizim suverenliyimizi əlimizdən almaq istəyir, ona görə də biz onunla vidalaşıb Avropa və Amerikaya üz tutmalıyıq".

KİV bildirir ki, bu günlərdə hökumətdə anti-Rusiya əhval-ruhiyyəsi yenicə yayılır. Paşinyanın anti-Rusiya təbliğatından reallıq hissini itirən Kommunist Partiyasının üzvləri Rusiya ilə bütün əlaqələri yavaş-yavaş qırıb avropalılara və amerikalılara öz sevgilərini göstərmək olduqlarını belə gizlətmirlər.

"İqtisadiyyatımızın böyük hissəsi Rusiya Federasiyasının əlindədirsə onunla necə vidalaşmaq olar? Təbii ki, dünyanın fövqəldövlətləri ilə balanslaşdırılmış siyasət və öz maraqlarını irəli sürmək fantastik bir şeydir, lakin bunun üçün ilk növbədə ağıl və bacarıq lazımdır", - nəşr qeyd edib.

*Gülayə Mecid*

## PKK-nın Kobani üzrə məsul şəxsi zərərsizləşdirildi

***Türkiyə Milli Kəşfiyyat Təşkilatı (MİT) Suriyanın şimalında Aynularap bölgəsində əməliyyat keçirib.***

"Unikal" Türkiyə KİV-ə istinadən xəbər verir ki, əməliyyat nəticəsində PKK/YPG terror təşkilatının Kobani əyaləti üzrə məsul şəxsi Həsən Demirtaş zərərsizləşdirilib.

## "Səfərbərlik bu şəxslər üçün təxirə salındı" - Putindən fərman

***Oktyabrın 6-da Rusiya prezidenti Vladimir Putin qismən səfərbərlik çərçivəsində hərbi xidmətə çağırışdan möhlət verilməsi haqqında fərmanda dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Fərmana əsasən, dövlət akkreditasiyasından keçmiş təhsil və elm təşkilatlarında əyani və qiyabi təhsil formalarında təhsil alan vətəndaşlara, həmçinin elmi və elmi-pedaqoji istiqamətlər üzrə aspirantlar; innovativ elmi və texnoloji mərkəzlərin ərazilərində yerləşən təşkilatlarda təhsil alan elmi aspirantlar, rezidentlər, stajçılar köməkçilərinə möhlət veriləbilər. Fərman imzalandığı gündən, oktyabrın 6-dan qüvvəyə minir. Daha əvvəl bildirilmişdi ki, Rəqəmsal İnkişaf Nazirliyi qismən səfərbərlikdən möhlət üçün ixtisasların siyahısını genişləndirəcək.

# "Rusiya yoxdursa, dünya nəyə lazımdır?" - Putin

***"Əgər Ukrayna və Qərb eskalasiyanı davam etdirsə, Putin dəfələrlə xəbərdarlıq etdiyi şeyi edəcək: o, nüvə silahından istifadə edəcək".***



"Unikal" xəvər verir k, bu barədə "National Interest" yazıb. Nəşrin məlumatına görə, Rusiya nüvə doktrinasında açıq şəkildə qeyd olunur ki, ontoloji təhlükə yarandıqda nüvə silahından istifadə mümkündür. Putin öz çıxışında qismən səfərbərlik elan edərək belə bir ontoloji təhlükəni formalaşdırıb. O, Qərbin Ukraynaya dəstək verməkdə məqsədinin Rusiyanı məhv etmək olduğu iddiasını təkrarlayıb. Putin açıq şəkildə bildirdi ki, Moskvaya ölkənin ərazi bütövlüyünü qorumaq üçün nüvə silahından istifadə etməyə icazə verilir, indi bura Ukraynanın işğal olunmuş hissələri də daxil olacaq:

"Rusiya Ukraynanın uğurlu hücumuna nüvə silahı ilə cavab versə, NATO və Qərb nə edəcək? NATO demək olar ki, ekvivalent nüvə zərbəsi ilə cavab verməyəcək. Putin Ukraynaya qarşı nüvə silahından istifadə edərsə, Qərbin variantları daha da məhdudlaşacaq. Ukrayna NATO-nun üzvü deyil və alyansın nüvə çətiri ilə qorunmur. Qərb liderlərinin nüvə silahı ilə cavab verməsi qəbuledilməz olardı. Keçmiş təcrübəli ABŞ rəsmisi və nüvə silahlarına nəzarət üzrə danışıqların iştirakçısı Vaşinqtonun Rusiyanın nüvə zərbəsinə necə reaksiya verəcəyini deyib. "Mən ABŞ-ın gərginləşcəyinə inanmıram. Təbii ki, onlar nüvə silahı ilə cavab verməyəcəklər".

Qərb liderləri, xüsusən də ABŞ prezidenti Co Bayden, Rusiyanın nüvə silahından istifadəsinə Ukraynaya yardımlarını iki qat artırmaq, daha çox adi silahlar və daha təkmil silahlar vermək, Rusiyaya qarşı iqtisadi sanksiyaları genişləndirmək və nüvə silahından istifadə etmək üçün beynəlxalq dəstək qazanmağa çalışmaqla cavab verəcəklərini vəd ediblər. Əsasən, Qərb ilk növbədə Putinin nüvə silahından istifadəsinə gətirib çıxara biləcək strategiyanı davam etdirməyə çalışacaq. Bu dəliliyin tərifidir: eyni şeyi təkrar-təkrar etmək, fərqli nəticələr gözləmək. Ukraynaya əlavə HIMARS raketləri, uzaqmənzilli raketlər, qabaqcıl pilotsuz təyyarələr, ağır zirehlər və hətta F-16 döyüş təyyarələri də daxil olmaqla əlavə Qərb hərbi texnikası ilə təmin edilməsi Ukraynanın Rusiya hərbçilərinin məhv etməsini təmin edəcək. Ancaq bu, müharibəni bitirməyəcək. Əslində, Qərbin ehtimal olunan cavabı Putin üçün əlverişli olacaq. Onun nüvə silahından ilkin istifadə etməsi Qərbin zəifliyini göstərən qeyri-mütənasib reaksiya ilə qarşılanacaqdı. Moskva nüvə silahından istifadəni həzm edəcək, çəkindirmənin mənasız olduğunu sübut edəcək və gələcəkdə yenidən nüvə silahından istifadə hüququ əldə edəcək. Putinin ölkə daxilində mövqeyi, şübhəsiz ki, yaxşılaşacaq. O, Qərbə qarşı duran və Rusiyanı müdafiə etmək üçün nüvə silahından istifadə edərək cəzadan qurtulan Rusiya lideri rolunu iddia edəcək. Putin hesab edir ki, Ukraynadakı müharibə NATO-nun genişlənməsi və Ukraynada müştəri dövlət yaratmaq səyləri ilə təmsil olunan Rusiya üçün ekzistensial təhlükəni aradan qaldırmaq üçün lazımdır. Bu kontekstdə nüvə silahından istifadə haqlıdır. Eləcə də Qərbin eskalasiyası riski. Putinin 2018-ci ildə verdiyi müsahibədə dediyi kimi, nüvə silahından istifadə qlobal fəlakətə səbəb olsa belə, ilk növbədə məntiqlidir. "Rusiya yoxdursa, dünya nəyə lazımdır?" Vətəni qorumaq üçün ifrata varmağa hazır olan lider Rusiyada dərin hörmətə, daha doğrusu qorxuya səbəb olacaq. Bu, Putin üçün kifayətdir".

*Gülayə Mecid*

# Tokayevin prezidentliyə namizədliyi irəli sürüldü

Qazaxıstanın hakim "Amanat" partiyası cari Prezident Kasım-Jomart Tokayevin prezidentliyə namizədliyini irəli sürüb.

Xatırladaq ki, Qazaxıstanda növbədənkənar prezident seçkiləri noyabrın 20-si keçiriləcək.



# Aİ Rusiyaya qarşı növbəti sanksiya paketini təsdiqlədi

***Avropa İttifaqı Rusiyaya qarşı 8-ci sanksiya paketini təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa Komissiyasından bildirilib.

Qeyd edək ki, yeni sanksiyada Rusiya neftinin qiymətinə, bu ölkədən polad, kağız, kimya məhsulları, plastik və siqaretlərin ixracına, hüquq, informasiya texnologiyaları və mühəndis xidmətlərinin göstərilməsinə və s. məhdudiyyətlər tətbiq edilir.

# "Qarabağ"ın məğlub olmayacağına əminəm" - Açıqlama



***"Olimpiakos"la oyundan xoş gözləntilərim var. Düşünürəm ki, "Qarabağ" səfərdə xal və ya xallar qazanacaq".***

Bu sözləri Qol.az saytına açıqlamasında futbol mütəxəssisi Aslan Kərimov deyib. O, "Qarabağ"ın bu gün Avropa Liqasının qrup mərhələsinin 3-cü turunda "Olimpiakos"la Yunanıstanda keçirəcəyi matç barədə fikirlərini bölüşüb.

A.Kərimov qeyd edib ki, "Olimpiakos"un heyətində itkilərin olması Ağdam təmsilçisinin qələbə qazanmasına daha çox şərait yaradır: "Olimpiakos"un heyətində problemlər var. Səhv etmirəmsə, əsas heyətin 3-4 futbolçusu zədə və ya digər səbəbdən meydana çıxa bilməyəcək. Bundan əlavə, yeni baş məşqçi təyin olunması bir tərəfdən pozitiv təsir edə bilər. Digər baxımdan isə yeni gələn məşqçi inanmıram ki, öz üslubunu qısa zamanda tam olaraq oturda bilsin. İstər-istəməz yeni nəsə edirsənsə, o, səhvsiz olmayacaq. Bir başqa nüans isə "Qarabağ"ın ümumilikdə yuxarı səviyyədə olması, son matçlarda futbolçuların göstərdiyi oyundur. Bu, onu göstərir ki, biz səfərdə "Olimpiakos"a qalib gələ bilərik".

Mütəxəssis "Qarabağ"ın "Olimpiakos"la oyunda ən az 1 xal qazanacağını vurğulayıb: "Qarabağ"ın məğlub olmayacağına əminəm. Səhv etməsək, qalib gələ də bilərik. Çünki həqiqətən də "Qarabağ"ın hücum xətti həm sürət, həm də texnika baxımından "Olimpiakos"un müdafiə xəttini yarmaq iqtidarındadır. Ən azından "Olimpiakos"un bundan əvvəlki avrokubok oyunlarına baxsaq, görəcəyik ki, kifayət qədər boşluqlar yaradırlar. Mən "Qarabağ"ın qələbə qazanacağını gözləyirəm. Ən azı məğlub olmayacağıq. Minimum 1 xalımız var. Amma hesab edirəm ki, müdafiədə daha diqqətli oynasaq, qalib gələ bilərik. Rəqib meydanında oynayırıq, azarkeşləri izdihamı var. Bu cür şeyləri nəzərə alıb, səhv etməsək, qələbə qazanarıq. Çünki buraxdığımız səhvlərdən rəqib komanda yararlana bilər. Mən 100 faiz əminəm ki, "Olimpiakos"un qapısına qol vuracağıq. Amma heç-heçə olar, yoxsa 1 top fərqi ilə udarıq, bu, 50-50-yədir (gülür).

Qeyd edək ki, bu gün "Georgios Karaiskakis" stadionunda keçiriləcək "Olimpiakos" - "Qarabağ" görüşü Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# FİFA referilərimizə UEFA-dan təyinat

***FİFA referisi Rauf Cabarov və FİFA referi köməkçisi Namiq Hüseynov 17 yaşadək futbolçulardan ibarət komandalar arasında təşkil olunacaq Avropa çempionatının seçmə mərhələsinin 7-ci qrupunda keçiriləcək oyunlara təyinat alıblar.***



"Unikal" xəbər verir ki, bu barədə AFFA-nın saytı məlumat yayıb.

Qeyd edək ki, İsveç, Xorvatiya, Uels və Albaniya komandalarının mübarizə aparacağı bu qrupun oyunları oktyabrın 20-dən 26-dək Xorvatiyada təşkil ediləcək.

# Son 4 il 4 ayın rekordu - yığmamızdan

***Azərbaycan millisi son 4 il 4 ayın rekordunu təkrarlayıb.***

Apasport.az saytının məlumatına görə, Canni de Byazinin yetirmələri FİFA reytinqində 5 pillə irəliləyib.

128-ci pillədən 123-cü yerə sıçrayan yığmamız son 52 ayda bundan böyük irəliləyişə nail olmayıb. Komandamız 2020-ci ilin noyabrında da indiki kimi sıçrayışa sevinib. Həmin vaxt de Byazinin komandası 114-cü yerdən 109-cuya yüksəlib.




Qeyd edək ki, millinin daha böyük irəliləyişinə sonuncu dəfə 2018-ci ilin iyununda təsadüf olunub. Qurban Qurbanovun baş məşqçilik etdiyi həmin vaxt 21 pillələk sıçrayış yaşanıb.



# A seriyası klubunda yeni baş məşqçi

***Marko Campaolonu istefaya göndərən "Sampdoriya"nın yeni baş məşqçisi müəyyənləşib.***

A seriyası təmsilçisini Deyan Stankoviç çalışdıracaq. 44 yaşlı mütəxəssislə 2023-cü ilin 30 iyununadək müqavilə imzalanıb.

Qeyd edək ki, Stankoviç karyerası ərzində yalnız "Srvena Zvezda"nın baş məşqçisi olub. O, 2019-2022-ci illərdə Serbiya təmsilçisini çalışdırıb.

Əlavə edək ki, "Sampdoriya" A Seriyasında 8 turdan sonra 2 xalla 20-ci pillədə qərarlaşıb.

# Benzema "Qızıl top"u qazanarsa...

***"Real"ın futbolçusu Kərim Benzema bu il "Qızıl top"u qazanarsa, müqaviləsi avtomatik olaraq uzadılacaq.***

Qol.az İspaniya mətbuatına istinadən xəbər verir ki, onun hazırkı sözləşməsində belə bir bənd yer alıb. 34 yaşlı hücumçu "Qızıl top"u qazanacağı təqdirdə 2023-cü ilin 30 iyununadək olan müqaviləsi uzadılacaq.

"Qızıl top"un qalibinin müəyyənləşəcəyi mərasim isə oktyabrın 17-si Parisdə keçiriləcək.

Qeyd edək ki, Benzema bu mövsüm La Liqanın 5 oyununda 3 qol vurub və 1 qolun ötürməsini verib.

# "Tottenhem"in məşqçisi öldü

***İngiltərənin "Tottenhem" klubunun məşqçisi Campyero Ventrone vəfat edib.***

Apasport.az saytının məlumatına görə, bunu London klubunun mətbuat xidməti açıqlayıb.

İngiltərə təmsilçisinin fiziki hazırlıq üzrə çalışdırıcısı 62 yaşında ölüb. İtaliyalı mütəxəssisin ölümünə leykemiya səbəb olub. Xəstəlikdən əziyyət çəkən məşqçi Neapolda dünyasını dəyişib. Qeyd edək ki, Ventrone "Yuventus", "Kataniya", "Szyansu Suni" və "Quançjou"da çalışıb. O, 2021-ci ilin oktyabrından "Tottenhem"də fəaliyyət göstərirdi.

# "Qarabağ" Yunanıstanda "Olimpiakos"u darmadağın etdi

***Azərbaycan çempionu "Qarabağ" avrokuboklarda növbəti oyununu keçirib.***

"Unikal" xəbər verir ki, Avropa Liqasında mübarizə aparan Qurban Qurbanovun yetirmələri qrup mərhələsinin III turunun matçına çıxıb. Ağdam klubu səfərdə Yunanıstan "Olimpiakos"u ilə qarşılaşıb. Pireydəki görüşün ilk yarısı qarşılıqlı hücumlarla keçsə də, hesab açılmayıb. Düzdür, Abdullah Zubir matçın əvvəlində rəqib qapısına yol tapmağı bacarıb. Amma VAR-ın ofsayd qərarı ilə qol hesaba alınmayıb. Qarşılaşmanın taleyi ikinci 45 dəqiqədə həll olunub. Hissənin ortalarında Ovusu Kvabena meydan sahiblərinin qapısına yol tapıb - 1:0. Görüşün sonlarında isə Marko Veşoviç fərqi artırıb. Ramil Şeydayevin qolu isə 3:0 hesablı darmadağını rəsmiləşdirib. "Qarabağ" ardıcıl ikinci böyükhesablı qələbəsini qazanıb.